# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycanın siyasi partiyaları sədrlərinin Qarabağa növbəti səfəri Ağdam şəhərinə təşkil olunub




3

SƏS

№ 120 (7288)

11 iyul 2025-ci il.
Qiyməti 60 qəpik

## Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü keçirilib



2

# Ermənistan yol ayrıcında: ya dəhliz, ya təcrid




5

## Dünya əhalisi: kim, harada, necə?



15

## Azərbaycana ən çox hansı ölkələrdən avtomobil idxal olunur?



16

## Qohum nikahlar: rəsmini dövlət qadağan etdi, qeyri-rəsmini də biz edək!



9

## "Sosial media" ilə peşəkar media arasında elan olunmamış müharibə



5

## Sülh üçün MÜHÜM MESAJ



6

# Azərbaycan - BƏƏ:

## qarşılıqlı əməkdaşlıq üçün yeni perspektivlər

### Prezident İlham Əliyev: "Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək"



Starteji cəhətdən əhəmiyyətli və eyni zamanda, mürəkkəb bölgədə yerləşən Azərbaycan həm öz milli maraqlarına, müstəqilliyinin qorunub möhkəmləndirilməsinə, həm də digər dövlətlərlə bərabərhüquqlu tərəfdaşlıq münasibətlərinin qurulmasına böyük önəm verir. Qazandığı misilsiz Zəfərdən sonra yeni reallıqlar yaradan Azərbaycanın istər regionda, istərsə də dünyada nüfuzu durmadan artır. Prezident İlham Əliyevin yürütdüyü müdrik və uzaqgörən siyasət nəticəsində ölkəmiz beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Dünya ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların Azərbaycanla əməkdaşlığa böyük maraq göstərmələri bunun təzahürüdür. Prezident İlham Əliyevin xarici ölkələrə, həmçinin



dünya ölkələrinin liderlərinin isə Azərbaycana səfərləri, dövlətimizin beynəlxalq əlaqələrinin genişlənməsinə töhfəsini verir. Azərbaycanın Avropa, Türk dünyası ölkələri ilə olduğu kimi, ərəb dövlətləri ilə də münasibətləri də yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə məlum işgüzar səfəri bu əlaqələrin müasir dövrümüzdə yeni inkişaf mərhələsində olduğunun təzahürüdür. Azərbaycanın ərəb dünyası ilə dərin tarixi-mədəni bağlılığı var. Ərəb ölkələri də mütəmadi olaraq Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə öz dəstəyini ifadə edib. Ötən tarixi dövrə nəzər salsaq görərik ki, Azərbaycanın ərəb dünyası ilə tarixi-mədəni bağlılığı yaradan sənədlər mövcuddur. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Ölkələr arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb.

### HƏRTƏRƏFLİ İQTİSADİ TƏRƏFDAŞLIQ SAZİŞİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 9-da Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü olub. Söhbət zamanı dostluq və qardaşlığa əsaslanan Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığı, siyasi münasibətlərimizin yüksək səviyyədə olduğu, iqtisadi-ticari əməkdaşlığın inkişaf etdiyi vurğulanıb. Prezident İlham Əliyevin bu ilin yanvarında Birləşmiş Ərəb Əmirliklərinə, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana səfərləri məmnunluqla xatırlanıb, həmin səfərlər zamanı müxtəlif sahələri əhatə edən ikitərəfli gündəliyimizlə bağlı geniş müzakirələrin aparıldığı qeyd olunub.

Görüşdə ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparılıb, enerji, o cümlədən bərpaolunan enerji sahəsində ölkələrimiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunub və bu istiqamətdə perspektiv layihələr müzakirə edilib. SOCAR-la ADNOC, həmçinin ölkəmizlə "Masdar" şirkəti arasında bərpaolunan enerji sahəsində əməkdaşlıqdan məmnunluq bildirilib.

Söhbət zamanı İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilmiş Zirvə görüşünün əhəmiyyətinə toxunulub və Birləşmiş Ərəb Əmirliklərinin bu tədbirdə yüksək səviyyədə təmsil olunması təqdir edilib.

Sonra prezidentlərin iştirakı ilə "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" imzalanıb.

### STRATEJİ TƏRƏFDAŞLIQ

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında diplomatik əlaqələr yaradılıb. İki ölkə arasında səfirlik səviyyəsində rəsmi münasibətlər qurulub. Belə ki, Azərbaycanın 1997-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Səfirliyi təsis edilib. Həmin səfirlik 2001-ci il 16 iyun tarixindən etibarən BƏƏ-nin paytaxtı Əbu-Dabi şəhərində fəaliyyət göstərir.

Ulu Öndər Heydər Əliyev İslam dünyası, ərəb ölkələri ilə əlaqələrə də həmişə xüsusi diqqət yetirib. Ümummilli Liderin əsasını qoyduğu bu əlaqələr indi uğurla davam etdirilərək yeni inkişaf mərhələsinə qədəm qoyub. 2006-cı il noyabrın 20-21-də Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfəri iki ölkə arasında əlaqələrin inkişafına təkan verib. Səfər çərçivəsində iki ölkə arasında iqtisadi, ticari və texniki əməkdaşlıq, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması, səhiyyə və tibb elmi, hərbi əməkdaşlıq, həmçinin ali təhsil sahələrində əməkdaşlıq haqqında sazişlər bağlanıb. Bundan başqa 14 mart 2012-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dubay şəhərində Baş Konsulluq təsis edilib. 2005-ci ildə Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında Anlaşma Memorandumu imzalanması, 2007-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfəri və s. bu ikitərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verir. Mövcud əlaqələr mövcud münasibətlərin davamlığını, strateji əhəmiyyət kəsb etdiyini göstərir.

Son illər ölkələrimiz arasında iqtisadiyyat, o cümlədən energetika sahəsində əlaqələr dinamik inkişafdadır. 2017-ci ildən bəri Dubay şəhərində ölkəmizin ticarət nümayəndəliyi, 2019-cu ildən isə yerli məhsullarımızın BƏƏ və Körfəz ölkələrində satışını təşkil etmək və "Made in Azerbaijan" brendinin BƏƏ bazarında daha çox tanıtmaq üçün "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Hazırda Azərbaycanda BƏƏ investisiyalı 350-dən çox kommersiya qurumu qeydiyyatdadır.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin 2024-cü ildə Azərbaycana rəsmi və COP29 ilə bağlı səfərləri, bu səfərlər çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşlər və aparılmış müzakirələr də münasibətlərin hazarkı səviyyəsini ifadə edir. Təsadüfi deyil ki, COP29-un Azərbaycanda keçirilməsi haqqında qərar məhz BƏƏ-də keçirilən COP28-də qəbul olunmuşdu.

### SƏNAYE MİQYASLI İLK GÜNƏŞ ELEKTRİK STANSİYASI

Azərbaycan ilə BƏƏ arasında əlaqələrin inkişafında enerji sektorunun xüsusi payının olması şübhəsizdir. Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan bu sahədə imkanlarını daha da şaxələndirir və elektrik enerjisi, əsasən də "yaşıl enerji"nin önəmli təchizatçısına çevrilməyi planlaşdırır. Bununla bağlı mövcud potensialın reallaşdırılması, investisiya qoyuluşu "yaşıl enerji" sektorunun sürətli inkişafına yol açır. Xəzərin Azərbaycan sektorunda təsdiq olunmuş külək enerjisi potensialı 157 qiqavata bərabərdir. Azərbaycan 2030-cu ilədək olan dövrü əhatə edən strateji mərhələdə ölkənin elektrik enerjisinin istehsal gücündə bərpaolunan enerji mənbələrinin payının 30-40 faizə çatdırılması hədəf kimi qarşıya qoyulub.

Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasiminin keçirilməsi tarixi hadisəyə çevrildi. Vurğulayaq ki, 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulub. Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır.

### AZƏRBAYCAN YAŞIL ENERJİNİN ÇOX MÜHÜM İXRAC MƏNBƏYİNƏ ÇEVRİLƏCƏK

Müasir dövrümüzdə dünyaya açıq olan Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, eləcə də xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Azərbaycan Cənub Qaz Dəhlizi meqa enerji layihəsini öz tərəfdaşları ilə birgə başa çatdırıb. Bu layihə Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş boru kəmərləri sistemini qurub ki, həmin boru kəmərinin uzunluğu isə 3500 kilometrə malikdir.Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq həyata keçirir. Bu əlaqələrin daha da genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir. "Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək. Əminəm ki, daha çox layihələr olacaq... Mən Azərbaycana etibar edən, bərpaolunan enerjiyə böyük həcmdə investisiya yatırmağı qərar verən və Azərbaycanın yaşıl gündəliklə bağlı hədəflərə çatmasına imkan yaradacaq şirkət olan "Masdar"a xüsusi minnətdarlığımı bildirmək istərdim", - deyən Prezident çıxışlarının birində bildirib. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. "Masdar" ilə aparılan əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcəkdir.

Son illər Azərbaycanla BƏƏ arasında hərtərəfli əlaqələrin genişlənməsi, xüsusilə də nəhəng enerji layihələrinin reallaşdırılması münasibətləri yeni mərhələyə çıxarıb. Bu əlaqələr münasibətlərin daha yüksək səviygyə qaldırılmasına öz töhfəsini verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü keçirilib

İyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın əvvəlcə nümayəndə heyətlərinin iştirakı ilə görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, sonra görüş təkbətək formatda davam edib.





# Azərbaycanın siyasi partiyaları sədrlərinin Qarabağa növbəti səfəri Ağdam şəhərinə təşkil olunub

**_Ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin və nümayəndələrinin növbəti səfəri iyulun 10-da Ağdam şəhərinə təşkil olunub. AZƏRTAC xəbər verir ki, siyasi partiya sədrlərinin işğaldan azad olunmuş ərazilərə səfərləri ölkəmizdə təşviq edilən siyasi dialoq mühitinin ayrılmaz hissəsidir. Demokratik ənənələrin dərinləşməsinə xidmət edən bu təcrübə Azərbaycan cəmiyyəti tərəfindən rəğbətlə qarşılanır və fəal şəkildə dəstəklənir. Dialoq mühiti siyasi müstəvidə tərəflər arasında etibarlı və güvənli münasibətlərin formalaşdırılmasına xidmət edir._**

Son illər ərzində Ağdam, Şuşa (2 dəfə), Zəngilan (2 dəfə), Xocalı, Əsgəran, Xankəndi, Laçın və Cəbrayıla təşkil olunmuş bu cür səfərlər artıq müsbət demokratik ənənəyə çevrilmiş, onların reallaşdırılması isə cəmiyyətdə həmrəylik mühitinin qorunmasına, habelə xalqın intellektual potensialının səfərbər edilməsinə xidmət edir. Təsadüfi deyil ki, ölkənin siyasi ritorikasında ən çox rast gəlinən "siyasi dialoq" məfhumu, eyni zamanda, Azərbaycanın siyasi gündəliyinə də daxil olub. Ölkədə fəaliyyət göstərən siyasi partiya sədrlərinin Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə növbəti səkkizinci birgə səfəri də məhz ölkədə mövcud açıq iqtidar-müxalifət dialoqunun bilavasitə təzahürüdür.

















Prezident İlham Əliyevin təşəbbüsü ilə təşviq edilən siyasi dialoq mühiti çərçivəsində Azərbaycanda son beş il ərzində siyasi partiyaların iştirakı ilə mütəmadi olaraq müxtəlif səpgili layihələr icra edilir. Bütün təşəbbüslərin strateji hədəfi milli həmrəyliyin qorunması, habelə dövlət və cəmiyyətin inkişafı naminə vətənpərvər qüvvələrin səfərbər olunmasıdır.

Siyasi proseslərdə açıq və etibarlı münasibətlərin yaşanması bilavasitə dövlətimizin başçısının məsələ ilə bağlı ali siyasi iradəsinin nümayişinin nəticəsidir. Prezident İlham Əliyev siyasətdə sağlam münasibətlərin bərqərar edilməsini və konstruktiv əməkdaşlığın vacibliyini çıxış və müsahibələrində hər zaman prinsipial olaraq vurğulayır.

İşgüzar və fəal fikir mübadiləsi şəraitində keçirilmiş səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Ağdamda siyasilərin qarşısında çıxış edərək demokratik ənənələrin dərinləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində görülmüş işlər haqqında geniş məlumat verib.

Sağlam və etibarlı əməkdaşlıq mühitinin siyasi sabitliyin, dayanıqlı inkişafın əsas və prinsipial göstəricilərindən olduğunu vurğulayan Administrasiya rəsmisi bildirib ki, mövcud istiqamətdə əldə edilmiş bütün uğurların əsasında məhz Prezident İlham Əliyev tərəfindən nümayiş olunan siyasi iradə dayanıb.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbənin müasir Azərbaycan tarixinin ən qürurlu səhifəsi olduğunu bildirən Ədalət Vəliyev qeyd edib ki, bütün uğurların qorunmasında həmrəylik mühitinin müstəsna rolu var. Siyasi sabitlik, xalqın əzmkarlığı, cəmiyyətimizdə yaşanan milli həmrəylik mühiti və dönməz ali siyasi iradə Azərbaycanın inkişafının və beynəlxalq müstəvidə nüfuzunun artırılmasının əsaslarıdır.

Ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri və qəzet redaktorlarının iştirak etdiyi Ağdam səfərinin proqramı kifayət qədər zəngin idi. Belə ki, səfər çərçivəsində partiya sədrləri Ağdam Dəmiryol və Avtovağzal Kompleksinin fəaliyyəti ilə yaxından tanış olublar. Daha sonra səfər iştirakçılarına Xıdırlı kəndində görülən inşaat işləri haqqında geniş məlumat verilib. Ağdam Muğam Mərkəzi, Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbi, Ağdam Konqres Mərkəzi və Ağdam City Hotel mehmanxanasında olmuş qonaqlar, eyni zamanda, İmarət Kompleksi və Cümə Məscidini də ziyarət ediblər.

Ağdam, Füzuli və Xocavənd rayonlarda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qonaqların qarşısında çıxış edərək bildirib ki, Ağdamda qısa müddət ərzində görülən işlərin timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan genişmiqyaslı işlər Azərbaycan dövlətinin iqtisadi qüdrətini nümayiş etdirir. Qeyd olunub ki, görülən işlərin sürəti və yüksək keyfiyyəti Qarabağın dünyanın ən füsunkar məkanlarından birinə çevriləcəyindən xəbər verir.

Eyni zamanda, Ağdam Sənaye Parkı haqqında da geniş məlumat verilib. Parkda ümumi investisiyalarının məbləği 238 milyon manatdan çox olan 27 sahibkarlıq subyektinə rezidentlik, 6 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu 33 sahibkarlıq subyekti tərəfindən sənaye parkında ümumilikdə 2090 iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən sənaye parkına 72 milyon manatdan çox investisiya yatırılıb, 300-dək daimi iş yeri yaradılıb.

"Böyük Qayıdış" Proqramı çərçivəsində görülən işlər haqqında səfər iştirakçılarına məlumatların verilməsi zamanı bildirilib ki, Ağdamın turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq. Ağdamda beynəlxalq tədbirlərin keçirilməsi faktı isə bütün Qarabağın dünyanın siyasi xəritəsində nüfuzlu məkanlarından birinə çevrilməsi deməkdir.

# Azərbaycan-Ermənistan sülh prosesində yeni addım

***Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində iyulun 10-da Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri arasında görüş keçirilib və Azərbaycan-Ermənistan dövlətlərarası normallaşma gündəliyinin müxtəlif aspektləri müzakirə edilib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin görüşün yekunlarına dair yaydığı mətbuat məlumatında qeyd olunub. Məlumata görə, ikitərəfli danışıqların normallaşma prosesi ilə bağlı bütün məsələlərin həlli üçün ən səmərəli format olduğu təsdiqlənib və bu əsasda belə nəticəyönümlü dialoqun davam etdirilməsi razılaşdırılıb.***

Sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər. Tərəflər həmçinin iki ölkə arasında ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə razılığa gəliblər.

Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin vacib istiqamətləri - sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması və inkişafı, sülh müqaviləsinin paraflanması və digər məsələlərlə bağlı çox ciddi və substansiv müzakirələr aparılıb. Bu təmasların və danışıqların istər müxtəlif işçi qrupları səviyyəsində, eyni zamanda, daha yüksək səviyyələrdə davam etdirilməsi barədə ümumi razılıq əldə edilib. Qeyd edək ki, müzakirə ümumilikdə 5 saatdan çox davam edib.

...May ayında Albaniyanın paytaxtı Tiranada "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısı çərçivəsində keçirilmiş görüşdən sonra bu gün Azərbaycan və Ermənistan liderləri Birləşmiş Ərəb Əmirliyinin Əbu-Dabi şəhərində bir araya gəldilər. Bu dəfə də danışıqlar ikitərəfli formatda, heç bir vasitəçi olmadan baş tutub. Birləşmiş Ərəb Əmirliyinin rolu isə sadəcə, görüş üçün əlverişli mühitin yaradılmasından ibarət olub. Qeyd edək ki, BƏƏ indiyədək nə keçmiş münaqişənin gedişində tərəf tutub, nə də danışıqlarda vasitəçilik etmək uğrunda mübarizə aparıb. Bu aspektdən də Əbu-Dabi neytral danışıq meydançası olaraq seçilib.

## Kommunikasiyalar məsələsi

Ermənistan xarici işlər nazirinin müavini Mnatsakan Safaryan regional kommunikasiyaların blokdan çıxarılması funksiyalarının beynəlxalq təşkilatlara verilməsi variantına münasibət bildirib. Nazir müavini bildirib ki, bu variant Ermənistanın bəyan etdiyi prinsiplərə tam uyğun gələrsə, həyata keçirilə bilər. Nazir müavini yola nəzarəti başqa təşkilatın həyata keçirə bilməsi məsələsinə də aydınlıq gətirib. Onun sözlərinə görə, burada "nəzarət" sözü yanlış ifadədir. Qeyd edək ki, bundan öncə ABŞ-ın Zəngəzur dəhlizində təhlükəsizliyin ABŞ şirkəti tərəfindən təmin edilməsi təklifi ilə Bakı və İrəvana müraciət etdiyi haqda məlumat yayılmışdı.

## Avropa mətbuatı nə yazır?

"Ermənistan və Azərbaycan Rusiyanı Cənubi Qafqazdan sıxışdırır". Bu barədə "Euronews"da məlumat dərc olunub. "Ermənistan və Azərbaycan liderləri sülh sazişini yekunlaşdırmaq üçün Əbu-Dabidə görüşüblər. Bu, sülh mətninin böyük hissəsi razılaşdırıldıqdan sonra ilk rəsmi ikitərəfli görüşdür. Görüşün nəticələri son məqamda Cənubi Qafqazın gələcəyini müəyyən edəcək. Bu, həm də ona görə tarixi görüş hesab olunur ki, Rusiya ilk dəfə Ermənistan-Azərbaycan münaqişəsinin həllində iştirak etməyəcək. Həm Bakı, həm də İrəvan Kremldən uzaqlaşır. Çünki son bir neçə ildə Rusiya ilə münasibətlər xeyli pisləşib. Əbu-Dabidəki danışıqlar Ermənistanın baş naziri ilə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında oxşar ikitərəfli görüşdən sonra baş tutub. Ukraynada bataqlığa düşməklə Moskva postsovet məkanında öz təsirini tədricən itirir", - Euronews yazıb.



Görüşdən gözlənilən nəticələr

Pakistanın Kəraçi şəhərindən olan geostrateji analitik və beynəlxalq məsələlər üzrə köşə yazarı İmran Xalid iyulun 10-da Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən görüşü dəyərləndirib. "Prezident Əliyevlə baş nazir Paşinyan arasında Əbu-Dabidə keçirilən görüş sülh prosesinin irəliləməsi üçün mühüm vədlər verir. Müqavilə layihəsinin mətni ilə bağlı müzakirələrin tamamlandığı bildirilir, çox güman ki, əsas diqqət detalların müzakirəsinə və imzalanma üçün qarşılıqlı etimadın yaradılmasına yönələcək. Görüşdən gözlənilən nəticələr bunlardır:

- Sülhə sadiqlik: Hər iki liderdən hərtərəfli sülh müqaviləsinin imzalanmasına sadiqliklərinin qətiyyətli təsdiqi.

- Qalan iki maneə üzrə əlavə aydınlıq gətirilməsi və ya razılaşma: Azərbaycana qarşı ərazi iddiaları olan Ermənistanın Konstitusiya müddəaları və ATƏT-in Minsk qrupunun ləğvi.

- Sərhədin delimitasiyası və demarkasiyası, Zəngəzur dəhlizi də daxil olmaqla regional kommunikasiyaların blokadadan çıxarılması kimi normallaşmanın praktiki aspektləri üzrə müzakirələr".

BƏƏ-nin neytral vasitəçi kimi rolu sülh prosesi üçün əhəmiyyətli beynəlxalq etimad yarada və təkan verə bilər. Azərbaycan, Əbu-Dəbi danışıqlarında yalnız sülh və təhlükəsizlik məsələlərini müzakirə etməyi deyil, həmçinin Ermənistanın gələcəkdə heç bir ərazi tələbi irəli sürməməsini də təmin etməyi hədəfləyir. Birləşmiş Ərəb Əmirlikləri, həm regional, həm də beynəlxalq səviyyədə sülhün təşviqinə xidmət etmək üçün öz diplomatik münasibətlərini fəal şəkildə istifadə edir. BƏƏ, artıq uzun illərdir ki, Azərbaycanın iqtisadi və siyasi tərəfdaşıdır və bu danışıqlarda vasitəçilik etmək, regionda daha sabit bir mühitin formalaşmasına yardım edə bilər. BƏƏ-nin sülh prosesindəki rolu, yalnız öz regional təsirini gücləndirmək məqsədilə deyil, həm də beynəlxalq münasibətlərdə öz imicini daha da möhkəmləndirmək məqsədini güdür.

## Geosiyasi perspektivlər

Əbu-Dəbi danışıqları Azərbaycanın regionda möhkəm sülh və təhlükəsizliyi təmin etməyə yönəlmiş diplomatik siyasətinin bir parçasıdır. Azərbaycanın dövlət rəhbərliyi, Ermənistanla münasibətlərin normallaşdırılmasında yalnız öz ərazi bütövlüyü prinsiplərinə uyğun addımların atılmasını gözləyir. Bu, həmçinin, Azərbaycanın beynəlxalq hüquq və hüquqi müstəqillik prinsiplərinə sadiqliyini nümayiş etdirir. Regionda sabitliyin təmin olunması, yalnız sərhəd münaqişələrinin həlli ilə mümkün ola bilər. Azərbaycan, Ermənistanın öz ərazisində hər hansı bir ərazi tələbi irəli sürməməsi şərti ilə hər zaman sülhə tərəfdar olduğunu bildirib.

Azərbaycan-Ermənistan arasında baş tutan Əbu-Dəbi danışıqları, regionda müsbət dəyişikliklərin başlanğıcı kimi qiymətləndirilir. Azərbaycanın mövqeyi açıqdır: yalnız öz ərazi bütövlüyü və beynəlxalq hüquqa əsaslanan prinsiplər çərçivəsində sülhə gedə bilər. Bu danışıqların nəticəsi, yalnız iki ölkənin deyil, bütün Cənubi Qafqaz regionunun gələcəyinə təsir göstərə bilər. Azərbaycan tərəfi, hər zaman sülh və inkişaf yolunun izlənməsi mövqeyində qalacağını vurğulayıb, amma bunun üçün Ermənistanın beynəlxalq hüquqa hörmət etməsi və Azərbaycanın ərazi bütövlüyünü tanıması vacibdir.

Əbu-Dəbi danışıqlarının əsas məqsədi, Azərbaycanın ərazi bütövlüyünün tanınması, bölgədə davamlı sülhün təmin olunması istiqamətində qarşılıqlı razılaşmalara nail olmaqdır. Azərbaycan və Ermənistan arasındakı münasibətlər uzun illər ərzində gərginliklə keçsə də, bu danışıqların nəticəsi, yalnız iki ölkə üçün deyil, bütövlükdə Cənubi Qafqaz regionunun gələcəyi üçün əhəmiyyətlidir.

Azərbaycan hər zaman sülh və tərəfdaşlıq yolunu dəstəkləyib. Lakin bu yol yalnız ərazi bütövlüyü və beynəlxalq hüququn təməl prinsiplərinə hörmətlə mümkün ola bilər. Ölkə yalnız öz ərazi bütövlüyünün tanınması və beynəlxalq hüquqa əsaslanan razılaşmaların həyata keçirilməsi ilə sülhə gedə bilər. Bir başqa mühüm müzakirə mövzusu isə, Azərbaycan və Ermənistan arasındakı sərhəd məsələləri və keçmişdəki sərhəd münaqişələrinə dair atılacaq addımlar olub. Azərbaycan, sərhəd təhlükəsizliyinin təmin olunması və hər iki ölkənin müstəqilliyi çərçivəsində sərhədlərin tanınmasını vacib hesab edir. Ermənistan isə sərhədin müəyyən edilməsi ilə bağlı beynəlxalq nəzarət və dəstək istəyini ifadə edib.

## Danışıqlara Ermənistandan reaksiya

Son vaxtlar Ermənistan Baş naziri Nikol Paşinyanın Azərbaycanla sülh prosesinə dair səsləndirdiyi bəyanatlar diqqət çəkir. O, sülh gündəliyinə sadiq olduğu, Bakı və Ankara ilə münasibətləri qaydasına salmağı hədəflədiyini bildirirdi. Ermənistan liderinin və onun komandasını bu məsələyə sadiqlik nümayiş etdirməsi maraq doğurur. Bəzi ekspertlər isə bunun Nikol Paşinyanın növbəti hiyləgər planı olduğunu, konstruktiv görünərək güzəştlər əldə etməyə çalışdığını söyləyirlər.

İrəvan hökumətinin sadiqlik bəyanatları nə dərəcədə inandırıcıdır? Bu, Paşinyanın növbəti planı ola bilərmi? Azərbaycan və Ermənistan arasındakı sülh gündəmində əhəmiyyətli irəliləyişlər var. İrəvanın daxili siyasi dinamikasında Bakının tələb və şərtləri əsasında yeni bir konyukturanın formalaşması prosesi gedir. Bu, o deməkdir ki, Ermənistan Baş naziri Nikol Paşinyan Azərbaycanın irəli sürdüyü sülh gündəliyinə sadiqlik nümayiş etdirən obraz yaratmağa çalışır. Hərçənd, bu obrazın nə qədər davamlı olacağı və sülh prosesində hansı dərəcədə əhəmiyyətli rol oynayacağı barədə perspektivdə bəzi açıq suallar qalmaqdadır.

Bununla belə, Azərbaycan-Ermənistan gündəliyi kənar müdaxilələr olmadan formalaşmaq ərəfəsindədir. Bu da, təbii ki, Bakının irəli sürdüyü şərtlərdən ən başlıca prioritet olan regional təhlükəsizlik üçün vacib xətt kimi ortaya çıxır. Ona görə də Ermənistanın verdiyi bəyanatlar Azərbaycanın bağlı qapılar arxasında irəli sürdüyü şərtlərin elan kimi qiymətləndirilmələdir. Yeni Azərbaycan artıq Ermənistanın ictimai-siyasi mühitini, gələcəkdə isə təhlükəsizlik və iqtisadi sahələrini yönləndirmək üçün mühüm bir alət qazanır.

İrəvanın bu trayektoriyadan çıxa biləcəyi ehtimalları da mövcuddur. Çünki Ermənistan hələ də Konstitusiyasını dəyişdirməyib və bununla manevr etmək üçün müəyyən imkanları saxlayır. Ancaq Azərbaycan prosesi yaxından izləyir və Ermənistanın revanşist hərəkətlərə meyil etməməsi üçün kifayət qədər ciddi resurs xərcləyərək diplomatik və siyasi addımlar atır. Proses bu formada davam edərsə, yaxın illərdə iki ölkə arasında sülh müqaviləsinin imzalanması mümkündür. Bununla belə, hələlik birbaşa müqavilə üçün münasib şərait tam formalaşmayıb. Ən azından yaxın zamanlarda sülh müqaviləsi ilə bağlı çərçivə sazişi imzalanması gündəmə gələ bilər.

## Nəticə

Prezident İlham Əliyevlə Ermənistan baş naziri Nikol Paşinyanın Əbu-Dabidəki görüşü tarixi əhəmiyyət daşıyır. Bu görüş heç bir vasitəçi olmadan keçirilməsinə görə əlamətdardır və ilkdir. Bu, həm sülh gündəliyinin inkişafında Azərbaycanın liderliyinin ifadəsi, həm də məhz milli maraqlarının irəli aparılmasıdır. İndiyədək Ermənistanın israrı nəticəsində vasitəçilərlə birgə görüşlər keçirilib. Lakin Rusiyanın, Avropa üçlüsünün (Fransa, Almaniya, Aİ), ABŞ-ın vasitəçiliyi ilə keçirilən görüşlərin hər biri sülh prosesini bu və ya digər şəkildə irəli aparsa da, heç vaxt iki ölkə sülhə bu görüşdəki qədər yaxın olmayıb.

Vasitəçilərlə olan görüşlərin hər biri tam olaraq sülhə deyil, üçüncü tərəflərin maraqlarına xidmət edib. Məsələn, Rusiyanın vasitəçiliyi ilə açılacaq regional nəqliyyat və kommunikasiya dəhlizinə Rusiyanın nəzarətini, ABŞ-ın vasitəçiliyi Amerikanın nəzarətini təmin etməyə yönəlib. Avropa İttifaqının və aparıcı Aİ dövlətlərinin vasitəçiliyi ilə keçirilən görüşlərdə əldə olunan nəticələrə baxdıqda Ermənistandakı Aİ Missiyası kimi faydasız, kəşfiyyat mahiyyətli bir qurumun yaradılmasına xidmət etdiyini görə bilərik. Halbuki, Azərbaycan Ermənistanı hər zaman ikitərəfli kontakta çağırırdı. Nəhayət ki, Ermənistan Azərbaycanın Vətən müharibəsindən indiyədək yaratdığı yeni regional geosiyasi reallıqları qəbul etdi. Vaxtilə Azərbaycan Qarabağ ermənilərinin nümayəndələrini ikitərəfli görüşlərə dəvət edərkən onlar xarici güclərə, xüsusilə Rusiyaya arxalanmayıb konstruktiv mövqe sərgiləsəydilər, yəni, Azərbaycanın 44 günlük müharibədə yaratdığı reallığı qəbul etsəydilər, 1 günlük antiterror tədbirləri baş tutmazdı.

Ermənistan rəhbərliyi hazırda konstruktiv mövqe sərgiləyir. Bu baxımdan Əbu-Dabi görüşünü konstruktiv, quruculuğa yönəlik adlandırmaq olar. Sülh müqaviləsinin mətninin tam razılaşdırılmasından sonra baş tutan bu görüşdə dövlətlərarası münasibətlərin normallaşması, sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması, sülh müqaviləsinin imzalanması və s. kimi məsələlərin liderlər səviyyəsində dialoqda dilə gətirilməsi bu istiqamətdə ali iradənin olduğunu sübut edir. Bu, həm də o deməkdir ki, Ermənistan Azərbaycanın əsas şərtlərindən biri olan Konstitusiyasına düzəliş etməyə də hazırdır, sadəcə, bunun strateji zamanlaması məsələsi aktual qalır. Həmçinin bu görüşün tam bir il sonra (2026-cı ilin iyulunda) seçkilərə gedəcək Paşinyanın hakimiyyətini qorumağa xidmət edəcəyini ehtimal etmək olar. Belə ki, o, sülh ritorikası ilə qalib gəlməyi düşünür. Azərbaycan Prezidenti sülh gündəliyini irəli daşıyan belə bir görüşdə öz liderlik funksiyası ilə iştirak etməklə Ermənistandakı seçki öncəsi siyasi gərginliklərdə Paşinyana siyasi dividend qazandırmış oldu. Bu, həm də Cənubi Qafqazı parçalayaraq daima hökmranlıq etmək istəyənlərin planlarını puç etdi.

**V.VƏLİYEV**

# Ermənistan yol ayrıcında: ya dəhliz, ya təcrid

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Zəngəzur dəhlizinin açılmasına razılıq verə biləcəyinə ümid etdiyini bildirib.Onun sözlərinə görə, İrəvanın ilkin olaraq Zəngəzur marşrutu üzrə Azərbaycanın şərtlərini rədd etməsinə baxmayaraq, bu gün Ermənistan regional iqtisadi inteqrasiya maraqlarına uyğun daha çevik yanaşma nümayiş etdirir. "Dəhliz Orta Marşruta yeni təkan verəcək. Türkiyə malları Orta Asiya və Çinə daha sürətli çatacaq, Avropadan Çinə yüklər Türkiyədən keçəcək",- Ərdoğan bildirib.**




O, Zəngəzur marşrutunun dəmir yolu komponentinin əhəmiyyətini




xüsusilə vurğulayaraq, bu xəttin yükdaşımalarda əsas rol oynayacağını qeyd edib. "Orta Dəhliz öz gücünü buradan alır",- o əlavə edib.

Türkiyə liderinin sözlərinə görə, yol İğdırdan keçərək Naxçıvana birləşdiriləcək. O, bunun regionda nəqliyyat logistikasının inkişafında mühüm mərhələ olacağına əminliyini ifadə edib.

Ərdoğan qeyd edib ki, Zəngəzur dəhlizinin açılışından sonra Qars-İğdır-Naxçıvan dəmir yolunun, eləcə də Qarabağda infrastruktur layihələrinin həyata keçirilməsi xeyli səmərəli olacaq. "Dünya dəyişir və bu, yeni həll yolları və iqtisadi potensialın aktivləşdirilməsini tələb edir",- o vurğulayıb.

Qeyd edək ki, iyunun 20-də Ermənistanın baş naziri Nikol Paşinyan İstanbula səfər edib və burada Türkiyə prezidenti tərəfindən qəbul edilib. Ola bilsin ki, məhz bu görüşdə İrəvana izah edilib ki, düşünməyə vaxt azdır: ya Ermənistan ümumi regional arxitekturaya inteqrasiya edir, ya da uzun illər əsas layihələrdən kənarda qalır.

Bu günlərdə mediada məlumatlar yayılıb ki, Azərbaycan və Ermənistan Amerika logistika şirkətinin rəhbərliyi və zəmanəti ilə Bakının şərtləri ilə, yeni sərhəd və gömrük nəzarəti olmadan maneəsiz keçidlə dəhlizin işləməsi ilə bağlı konsensusa gələ bilərlər.

Belə ki, "Carnegie Politika" portalı ABŞ-ın Zəngəzur marşrutuna nəzarət etmək üçün Amerika operatorunun təyin edilməsini təklif etdiyini yazıb. Mənbənin məlumatına görə, prezident Donald Trampın administrasiyası yük tranzitinin idarə edilməsi və monitorinqinin Amerika şirkətinə həvalə ediləcəyi plan təqdim edib.

Bu formatın Ermənistanın marşrut üzərində suverenliyini qorumaqla, Azərbaycana uzunmüddətli təhlükəsizlik zəmanəti verməsi gözlənilir.

ABŞ bu yanaşmaya ehtiyatla və nikbin yanaşır: "Ola bilsin ki, prezident Tramp hətta buna görə Nobel mükafatı da alsın",- məqalə müəllifləri amerikalı məmurdan sitat gətirirlər.

Yaxın gələcəkdə belə bir ssenari nə dərəcədə realdır? İrəvan belə bir şəraitdə Araz çayının şimal sahili ilə Zəngəzur yolunun açılmasına razılaşa bilərmi?

Tanınmış siyasi müşahidəçilər bu məsələ ilə bağlı fikirlərini Caliber.Az-a bildiriblər. Ekspertlərin rəyini oxucularımıza təqdim edirik.

Erməni analitik və publisist İşxan Verdyan xatırladıb ki, Ermənistanın baş naziri Nikol Paşinyan açıq şəkildə bəyan edib: Ermənistanın suverenliyindən kənarda "dəhliz" olmayacaq.

"Bununla belə, mən hesab edirəm ki, İrəvan və Bakı kompromis əldə edəcəklər, bunun əsasında Azərbaycan vətəndaşları regional inkişafın məntiqi nəzərə alınmaqla hazırlanmış sadələşdirilmiş prosedurlar əsasında Ermənistan ərazisini keçə biləcəklər. Parlamentin spikeri Alen Simonyan artıq bu barədə danışaraq, Ermənistan və Gürcüstan arasında vizasız tranzitin mümkün analoqunu qeyd edib.

Paşinyan Ermənistan ərazisinə nəzarəti heç bir xarici qüvvəyə verməyəcək. Amma görünür, o, prezident Ərdoğanla görüşdə razılaşmaya müsbət yanaşıb və yəqin ki, yaxın vaxtlarda prezident Əliyevlə də razılaşmanı tamamlayacaq.

Zəngəzur marşrutu böyük ehtimalla açılacaq və Naxçıvanı Azərbaycanın qalan hissəsi ilə birləşdirən dayanıqlı nəqliyyat həllinə çevriləcək. Bu, yeni iqtisadi axınlar yaradacaq və regionların təcrid vəziyyətindən çıxmasına imkan verəcək.

ABŞ-ın iştirakına gəlincə, əgər onlar texniki dəstək- logistika, İT monitorinqi, yük təhlükəsizliyi təklif etsələr, bu müzakirə oluna bilər.



Amma əgər "zəmanətlər" nəzarət və ya hərbi mövcudluğu nəzərdə tutursa, onda yalnız sual vermək olar: Amerika xidmət personalı çiyin qayışları rolunda nə dərəcədə uyğun görünər?", - Verdyan qeyd edib.

Nəqliyyat logistikası üzrə azərbaycanlı ekspert Rauf Ağamirzəyev bildirib ki, hazırda hər iki layihənin Naxçıvana aparan yol hissəsində əsasən aktiv işlər aparılır.

"Söhbət iki paralel təşəbbüsdən gedir: Ermənistan ərazisindən keçən Zəngəzur dəhlizi və İran ərazisindən Araz çayının cənub sahili boyunca keçən Araz marşrutu. Ötən ay İran tərəfində tikinti işlərinin fəal şəkildə aparıldığı barədə məlumatlar var idi. Ayın sonunda Azərbaycan sərhədi istiqamətində- yol seqmenti boyunca Ermənistan hissəsində də partlayış işləri aparılırdı.

İnanıram ki, regionda baş verən son hadisələr müsbət dinamika yaradır və hər iki layihə həyata keçiriləcək.

Hazırda bu marşrutlara kimin nəzarət edəcəyi ilə bağlı konkret məlumat yoxdur, lakin zamanla buna aydınlıq gələcək. Halbuki, texniki baxımdan yol mövcud olmalıdır və olacaq. Artıq işlərin gedişi göz qabağındadır.

Azərbaycan tərəfdən isə layihə demək olar ki, başa çatıb. İran tərəfdən tikinti fəal şəkildə aparılır- Ağbənddən Culfaya doğru. Araz çayı üzərindən Ordubad istiqamətində körpünün tikintisi ilə bağlı da razılıq əldə olunub.

Azərbaycanın Ağbənd və Ordubad məntəqələri ilə üzbəüz İranın Kelala və Siyaqrut qəsəbələri yerləşir. Marşrut onlardan keçəcək. Bu hissədə də yol işləri aparılır və Ermənistan tərəfdə də həmin istiqamətdə hərəkət qeydə alınıb",- ekspert bildirib.

***Tərcümə - Elçin Bayramlı***



Elçin Bayramlı

## "Sosial media" ilə peşəkar media arasında elan olunmamış müharibə

İnformasiya texnologiyalarının inkişafı və internet məkanında heç bir nəzarətin olmaması çox ciddi problemlər yaradıb. Getdikcə informasiya məkanında dezinformasiyalar, qərəzli, təxribat xarakterli materiallar çoxalır. Bəziləri bu şəraitdən yararlanıb, hətta biznes qururlar. Artıq internet məkanda minlərlə sayt, sosial şəbəkə kanalları açılıb və bunun adı media qoyulub. Oxucular, tamaşaçılar da bunları media hesab edirlər. Bəzən hətta onları "sosial media" adlandırırlar. Halbuki, media tamamilə başqa şeydir- bu, peşəkar və məsuliyyətli bir kütləvi informasiya resurslarıdır. Üstəlik media özü sosial instututdur. Deməli, məsuliyyətsiz və qərəzli internet resurslarını "sosial media" adlandırmaq tam bir cəfəngiyyatdır. İnternetdəki hər saytı və ya sosial şəbəkə səhifəsini media adlandırmaq olmaz. Bunlar, sadəcə, internet saytları və ya səhifələridir. Bu məsələnin birinci tərəfidir.

Məsələnin 2-ci tərəfi həqiqi medianın informasiya məkanında üstünlüyünün itirilmə təhlükəsidir. Burada əsas problem ciddi medianın idarə edilməsi, yəni menecment məsələsidir. İlk növbədə obyektivlik, maliyyə müstəqilliyi və peşəkarlıq əsas götürülməlidir. Təəssüf ki, bizdə belə media resursları çox azdır. Əksər media subyektləri asılı və tərəflidir- ya hansısa bir qüvvənin tərəfində və ya bir şəxsin tərəfində olur. Bu cür idarəetmə ilə informasiya bazarına, geniş auditoriyaya nüfuz etmək mümkün deyil. Çünki oxucu, tamaşaçı kütləsi bunu hiss edir və belə resurslara etibar göstərmir. Ona görə də, həm obyektiv materiallar paylaşılmalıdır, həm də auditoriyanın gözlədiyi məlumatlar çatdırılmalıdır.

Təəssüf ki, son dövrlərdə oxucu, tamaşaçı auditoriyası peşəkar mediadan istədiyini ala bilmir. Məsələn, mediada cəmiyyətin, ölkənin faydasına olan vacib mövzulara çox az toxunulur, onun əvəzinə şou xarakterli materiallar işlənilir.

Güclü və nüfuzlu media yaratmaq üçün böyük imkanlar və obyektiv, peşəkar fəaliyyət tələb olunur. Bütün hadisələri və prosesləri yerindən kütləyə çatdırmaq yalnız böyük media holdinqlərinin gücü daxilindədir, yalnız onların bunun üçün yetərli kadr heyəti, texniki bazası və digər imkanları var. Bu halda artıq çatdırılan məlumatı məhdud sayda oxucu kütləsi deyil, daha geniş kütlə oxuyur.

1-2 nəfərdən ibarət kiçik saytlardan belə səviyyədə informasiyalar gözləmək ədalətli olmazdı. Kiçik saytların işçi qüvvəsi saxlaya bilməməsi və ya 1-2 nəfərlə ortaya ciddi media qoyması mümkün deyil. Onun xaricdə və ölkənin regionlarında müxbir postları yoxdur. Peşəkar işləmək üçün çoxsaylı peşəkar kadrlar, güclü madi-texniki baza olmalıdır. Bu kimi çatışmazlıqlarla bu media resursları dünya informasiya məkanına çıxa bilməz.

Dünya informasiya məkanına çıxmaq üçün çoxsaylı işçi qüvvəsi olan- peşəkar sayt, qəzet, informasiya agentliyi, radio və televiziyanın birləşdiyi media qruplar olmalıdır ki, dünyanın hər yerindən xəbər versin, maraqlı təhlillər, araşdırmalar ortaya qoysun və nüfuz qazana bilsin. Ona görə də, xırda və zəif media orqanlarında təmərküzləşmə prosesi getməlidir. Bu təmərküzləşmə prosesinə əsasən, bir neçə media orqanı birləşərək, böyük media holdinqləri formalaşmalıdır.

Reklam bazarı da vacib şərtdir. Özünü maliyyələşdirə bilməyən media heç vaxt peşəkar və obyektiv ola bilməz. Dünyada, ölkədə ictimaiyyət arasında nüfuz qazana bilməz.

Media kütlələrə psixoloji təsir silahıdır. Bu silah dövlətin və cəmiyyətin əlində olmalıdır. Çünki insanlar media orqanlarında dolğun, ciddi, tərəfsiz məlumat ala bilməyəndə artıq sosial şəbəkələrə üz tuturlar. Hadisənin əslini, reallığı sosial şəbəkələrdə axtarırlar. Nəticədə ölkə mediası ictimaiyyətə təsir funksiyasını itirir, informasiya məkanına "sosial media" adlandırılan məsuliyyətsiz qüvvələr nəzarət edir.

Bütün bu məsələlər kompleks şəklində həll edilməlidir. Məsələnin bir tərəfini həll edib, digər tərəfini boş buraxdıqda bu boşluqlar ortadan qalxmayacaq. Elə bir şərait yaradılmalıdır ki, həm dövlətin əhaliyə çatdırmaq istədiyi məlumatlar, həm də əhalinin dövlətə çatdırmaq istədiyi məlumatlar mediada yer alsın. Əhalinin böyük hissəsi həqiqi media orqanlarına inansın, onu dinləsin, oxusun, izləsin. Peşəkar medianın başqa çıxış yolu yoxdur.

Məhz bu səbəbdən son illərdə dövlətin bu sahədə həyata keçirdiyi islahatlar, Medianın İnkişafı Agentliyinin həyata keçirdiyi layihələr və tədbirlər çox təqdirəlayiqdir. Media haqda Qanunun qəbul edilməsi, media resurlarının və jurnalistlərin vahid reyestrinin yaradılması, jurnalistlərin peşəkarlaığının artırılması üçün təlimlərin, seminarların keçirilməsi, media orqanlarının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə onlara verilən maliyyə dəstəyi və sair bu kimi tədbirlər 150 yaşlı Azərbaycan mediasının inkişafı və müasir çağırışlara cavab verməsi üçün son dərəcə vacib işdir.

Şübhə yoxdur ki, bu sahədə islahatlar davam edəcək və bütün bu tədbirlər Azərbaycan mediasının sağlamlaşdırılması, məsuliyyətinin və peşəkarlığının artırılması, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması və media resurslarının nüfuzunun gücləndirilməsinə gətirib çıxaracaq.

# Avropa İttifaqında korrupsiya qalmaqalı

## Von der Leyen etimadsızlıq səsverməsi ilə üzləşir, səbəb "peyvənd sövdələşmələri"dir

***Koronavirus peyvəndi ilə bağlı çox milyard avroluq qeyri-şəffaf sövdələşmələr, Avropa Komissiyasının Aİ üzv dövlətlərindəki seçkilərə təsiri ilə bağlı ittihamlar və digər qalmaqallar AK prezidenti Ursula fon der Leyenə təzyiq göstərir. Avropa Parlamentinin deputatı Fabio De Masi üçün bu aydındır: o, Aİ vətəndaşları arasında bütün etibarı itirib. Ursula fon der Leyen çətin vəziyyətdədir: cümə axşamı Avropa Parlamenti Avropa Komissiyasının sədrinə etimadsızlıq səsverməsi keçirəcək. Müzakirələr "Feyzerqeyt" adlanan çox milyard avroluq, koronavirus pandemiyası zamanı qeyri-şəffaf peyvənd sövdələşmələri və Avropa Komissiyasının Aİ üzv dövlətlərindəki seçkilərə təsir ittihamları ilə bağlıdır.***



Von der Leyenin ən səsli tənqidçilərindən biri Sahra Vaqenknext İttifaqının (SWU) deputatı və Bundestaqın keçmiş Sol Partiyasından olan üzvü Fabio De Masidir. "Berliner Zeitung" qəzetinə verdiyi müsahibədə o, ciddi ittihamlar irəli sürür: peyvənd müqavilələri ilə qeyri-qanuni sövdələşmələr, riskli silahların yığılması və Aİ-də struktur demokratik defisit.

*-"Berliner Zeitung": Cənab De Masi, cümə axşamı Avropa Parlamenti Avropa Komissiyasının sədri Ursula fon der Leyenə etimadsızlıq təklifi ilə bağlı səsvermə keçirəcək. Necə səs verəcəksiniz?*

Fabio De Masi: Mən etimadsızlıq məsələsinə səs verəcəyəm.

*- Niyə?*

- Sahra Wagenknecht Alyansı xanım fon der Leyenə səs vermədi. O, Aİ-ni çıxılmaz vəziyyətə salır. Bu, iqtisadiyyatımızın gələcəyini təhlükə altına alan çılğın silahlanmaya və enerji qiymətlərini artıran, lakin Ukrayna münaqişəsinə ciddi təsir göstərməyən sanksiyalara aiddir. Von der Leyen hətta partladılmış "Şimal axını" boru kəmərinin təmirinə icazə vermək istəyir və bununla da bu dövlət terror aktını təşviq edir və İsrailin Qəzzada törətdiyi cinayətlər və İrana hücum zamanı beynəlxalq qanunlara əməl etməməsi barədə susur. Donald Trump-ın cəza tariflərinə görə təşəkkür edərək, o, onu silah sifarişləri ilə doldurur və Amerika şist qazından asılılığını artırır.

*- İki səhifəlik etimadsızlıq səsverməsi fon der Leyeni hər şeydən əvvəl koronavirus pandemiyası zamanı şəffaflığın olmaması və zəif idarəetmədə ittiham edir. Problem tam olaraq nədədir?*

- O, peyvəndlərin alınmasını öz üzərinə götürdü və SMS mesajları vasitəsilə birbaşa Pfizer əczaçılıq şirkətinin rəhbəri ilə milyardlarla avro dəyərində müqavilələr bağladı. Müqavilələrə görə, peyvəndlər gətirilməsə belə, böyük məbləğlər ödənilməlidir. Amma o, bu yazışmaları ictimailəşdirmək istəmir. İndiyə qədər o, yazışmaları saxladığını və ya sildiyini söyləməyib. Dörd il əvvəl Bundestaqda təkbaşına danışmağa məcbur olduğum Jens Spahnın maska sövdələşmələri, fon der Leyenin danışıqları kimi, bir nəfərin işi idi və milyardlara başa gəldi.

*- May ayının ortalarında AB Ədalət Məhkəməsi von der Leyenin bu mətn mesajlarını ictimailəşdirməli olduğuna qərar verdi. Bu, hər şeyin tezliklə aydınlaşacağı anlamına gəlirmi?*

- Xeyr. Çünki informasiya azadlığı ilə bağlı qanunlar yalnız müəyyən edir ki, məhkəmə nəyinsə arxivləşdirilməli və ictimailəşdirilməli olub-olmadığını qiymətləndirməlidir. Amma mesajı silsəm, hətta məhkəmə də heç nə edə bilməz. Bunun qeyri-qanuni olduğu müəyyən ediləcək, lakin informasiya azadlığı qanunlarında heç bir cəza nəzərdə tutulmayıb. ABŞ-da FTB agentləri Tramp və Baydenin evlərinə soxulublar, çünki onlar qarajda dövlət sirri olan sənədləri saxlayıblar. Bizdə isə keçmiş kansler Helmut Kol bir vaxtlar Oqgersheymdəki zirzəmisində dövlət sənədlərini saxlayırdı və bunun heç bir nəticəsi olmadı. Qanunlar sərtləşdirilməlidir. Xanım fon der Leyen prokurorun işidir.

*- Etimadsızlıq səsverməsində koronavirus siyasətindən əlavə daha bir məqam qeyd olunur. Avropa Komissiyasının Rumıniya da daxil olmaqla Aİ-yə üzv ölkələrdəki seçkilərə təsir göstərdiyi iddia edilir. Siz həqiqətən Brüsselin bu ölkələrdə keçirilən seçkilərə təsir etdiyinə inanırsınızmı?*

- Rumıniyada prezident seçkilərinin birinci turunun qalibi, NATO-nu tənqid edən ifrat sağçı siyasətçi seçkilərdən kənarlaşdırıldı, çünki kəşfiyyat xidmətlərinin məlumatına görə, TikTok vasitəsilə onun xeyrinə xaricdən kütləvi təsir kampaniyası aparıldığı iddia edilir. Sonradan məlum oldu ki, bu kampaniya əslində rəqibi zəiflətmək üçün liberal hakim partiya tərəfindən maliyyələşdirilib. Avropa Komissiyası rəsmi araşdırmaya başlamaqla hakim partiyanı dəstəkləyib. Namizəd bəyənilməsə belə, bunlar qeyri-ciddi və qeyri-demokratik üsullardır. Bununla belə, biz sağ tərəfin irəli sürdüyü etimadsızlıq aksiyasında Avropa Komissiyasının da Almaniya seçkilərinə təsir göstərdiyi iddiası ilə razılaşmırıq.

*- Etimadsızlıq təşəbbüsünün qəbul olunma ehtimalını necə qiymətləndirirsiniz?*

- Ehtimal sıfıra yaxındır. Çox güman ki, sollar səsvermədə iştirak etməyəcək, çünki etimadsızlıq səsverməsi ilə bağlı təklif sağların bir hissəsindən gəlir. Bu axmaqlıqdır: əgər von der Leyeni sağa qarşı çıxmaq üçün dəstəkləsəniz, bu, yalnız fon der Leyenə və sağa kömək edəcəkdir. Parlamentin əksəriyyəti üçün Avropa Komissiyasının Meloninin dəstəyi ilə hakimiyyətə gəlməsi problem deyildi. Həmin vaxt koalisiyada Yaşıllar və Melonlar var idi. Beləliklə, siz haqqla birlikdə Avropa Komissiyasına səs verə bilərsiniz, lakin heç bir halda sağla birlikdə fon der Leyenin əleyhinə səs verməyin. Bu monarxiyaya bənzəyir.

*- Bununla belə, sual yaranır: bu etimadsızlıq səsverməsi CCV-nin Avropa Parlamentində sağçı partiyalarla gələcək əməkdaşlığına təsir göstərəcəkmi?*

- Xeyr, əməkdaşlıq yoxdur. Biz Avropa Parlamentində oturduğumuz vaxtdan deyirik ki, təklifləri məzmununa görə qiymətləndiririk. Biz əvvəllər, hətta sağçı partiyalardan gələndə belə, bizə ağlabatan görünən təkliflərə səs vermişik. Amma o da aydındır ki, AfD bizim siyasi rəqibimizdir. NATO-nun ÜDM-in 5%-ni silahlanmaya yatırmaq məqsədini ilk alqışlayan partiyadır. Bu, federal büdcədən demək olar ki, hər ikinci avroya uyğundur və hökumət xəttidir. Sosial dövləti dağıtmaq və pensiyaları özəlləşdirmək istəyir - biz bunun qəti əleyhinəyik. Təbii ki, biz inteqrasiya sisteminə həddindən artıq yük yaratmayan tənzimlənən miqrasiyanın tərəfdarıyıq. Ancaq AfD-də uzun illər burada yaşayan insanları deportasiya etmək arzusunda olan əsl irqçilər var. AfD-ni siyasi oyunlarla gücləndirmək olmaz. Bura AfD-dən gələn hər şeyi rədd etmək daxildir. CDU-nun Sol Partiya ilə etdiyi də məhz budur.

*- Bununla belə, partiyanız son vaxtlar AfD ilə danışıqlara açıqlıq nümayiş etdirib*

- Bu, uydurma müzakirədir. Söhbət Türingiyadakı vəziyyətə bənzər bir vəziyyətdən gedir, burada AfD hakimlərin təyinatını əngəlləyir. Əgər biz dialoqa girsək, AfD-nin daha az bəhanəsi olacaq. Yeri gəlmişkən, Türingiyadakı Sol Partiyadan olan cənab Ramelow AfD siyasətçisini əyalət parlamentinin vitse-prezidenti seçdi. Daim 20-30% səs toplayan partiyanı həyatın bütün sahələrindən kənarlaşdırmaq olmaz. Saksoniya-Anhalt əyalət parlamentinə seçkilərdə yerlərin mütləq əksəriyyətini qazansa, biz nə edəcəyik? Bütün digər fraksiyalar evə gedəcəkmi? Yəqin ki, biz alış-verişə gedəndə və ya məhəllələrimizdə gəzəndə daim AfD seçiciləri ilə qarşılaşırıq. Biz də onlarla danışmalıyıq. Xüsusilə AfD-ni daha da gücləndirmək istəmiriksə.

*- Dediniz ki, fon der Leyenin istefa şansı sıfırdır. Etimadsızlıq səsverməsindən nə qazanacağınıza ümid edirsiniz?*

- Biz bu səsverməni dəstəkləyirik, çünki cəmiyyətdə xanım fon der Leyenə böyük inamsızlıq olduğuna inanırıq, lakin bu, parlamentdə əksini tapmır. Ursula fon der Leyen özünü XIV Lüdovik kimi aparır. Parlamentin əksəriyyəti Pfizer sövdələşmələrini və CDU siyasətçisinin dəfələrlə Avropa qanunlarını pozduğunu müəyyən edən məhkəmə qərarlarını müzakirə etməkdən imtina etdi. Etibarsızlıq səsverməsi sayəsində bu məsələlər ən azı Avropa Parlamentində müzakirə mövzusuna çevrilib. Xanım von der Leyen, həmçinin fövqəladə hallarla bağlı Aİ Müqavilələrinin 122-ci maddəsinin müddəalarına qeyri-qanuni istinad edərək, Parlamenti silahların maliyyələşdirilməsi səlahiyyətlərindən məhrum edib. Parlament indi buna qarşı tədbirlər görür. Keçmiş AB ombudsmanı Emily O'Reilly deyib ki, xanım fon der Leyen Aİ-nin taleyinə nəzarət edən seçilməmiş texnokratlardan ibarət mafiya şəbəkəsi yaradıb. Həmin qiymətləndirməni bölüşürəm.

***V.VƏLİYEV***
***(Tərcümə)***



MƏTLƏB
*Metlebsalahov@mail.ru*

# Sülh üçün MÜHÜM MESAJ

***Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Əbu-Dabidə keçirilən görüş bir sıra mühüm məqamları ilə daha aktual xarakter alıb. İlk növbədə ona görə aktual görüş kimi qiymətləndirilməlidir ki, iki ölkə arasındakı sülh müqaviləsinin imzalanması üçün səmərəli müzakir aparılıb. Çünki bu görüşə qədər hər iki tərəf arasında sülh müqaviləsinin imzalanması üçün bir çox detallar işlənilib hazırlanıb. Demək bu görüş artıq həlledici qərar üçün hazırlıq məqsədi daşıyır. Xüsusi bu görüşün ənənəvi məkanlarda deyil, Birləşmiş Ərəb Əmirliklərində keçirilməsi də konkret qərarların qəbuluna olan ümidləri çoxaldır. Əlbəttdə bu görüşdən sonra sülh sazişinin imzalanması üçün hansı addımların atılacağı da önəmli məsələdir. Yəni prosesin hərəkətliliyi Əbu-Dabidə keçirilən görüşünün məhsuldarlığına qiymət vermək baxımından önəmlidir.***

Digər vacib bir məqama diqqət çəkib ki, hazırda Ermənistandakı Rusiyameylli revanşistlər, N.Paşinyana düşmən kəsilənlər bu görüşün ABŞ-ın təşkilatçılığı ilə keçirildiyi barədə fikirlər səsləndirir, qəbul ediləcək hansısa konkret qərar halında İrəvanda N.Paşinyanı vətən xaini elan etməyə hazırlaşırlar. Əlbəttə, bu sadəcə ənənəvi erməni xəstəliyinin təzahürüdür. Lakin həm də uzun illərdir erməni siyasətində və cəmiyyətində gənə kimi yapışmış xəstə streotiplərin son çırpıntılarıdır. Çünki Ermənistanda ağlı başında olan istənilən şəxs anlayır ki, artıq zaman əməkdaşlıq, inteqrasiya və sürətli inkişafdan yararlanmaq zamanıdır. Ermənistanı əsrin zibilliyində saxlamaqla hökmranlıq etmək xülyası gülünc bir xülyadır. Bütün bu siyasi tullantıların revanşist cəhdləri bölgədəki real siyasi gerçəklik qarşısında fiaskoya məhkumdur. Xüsusilə bu görüşə qədər Ermənistanın baş naziri Nikol Paşinyanın Türkiyəyə etdiyi səfəri və Azərbaycanın Xankəndidəki ECO Zirvə görüşündə Türkiyə, Pakistan və İran kimi bölgə dövlətləri ilə aparılan danışıqları qeyd etmək istəyirəm. Yəni artıq İran da Zəngəzur dəhlizi barədə əvvəlki radikal etiraz tonunu saxlamayıb. O da bölgədəki siyasi gerçəklikləri anlamağa başlayıb.

Görüş barədə yekun məlumatda deyilir ki, "Sərhədin delimitasiyası prosesi ilə bağlı əldə olunmuş nailiyyətləri dəyərləndirən liderlər bu istiqamətdə əməli işlərin davam etdirilməsi üçün müvafiq dövlət komissiyalarına tapşırıqlar veriblər.Tərəflər, həmçinin iki ölkə arasında ikitərəfli danışıqları və etimad quruculuğu tədbirlərini davam etdirmək barədə razılığa gəliblər." Bu məlumat aparılan danışıqların artıq işgüzar və konkret xarakter aldığını aydınca təsdiqləyir. Üstəlik N.Paşinyan da Azərbaycanla sülh müqaviləsi imzalamağa, hakimiyyətini gücləndirmək, qarşıdakı seçkilərə daha optimist şəkildə daxil olmağa və bölgədəki proseslərə inteqrasiya etməyə əvvəlki vaxtlardan daha istəkli görünür. Çünki İrəvandakı revanşistləri və daşnak yuvasına çevrilmiş kilsə keşişlərini zərərsizləşdirmək üçün əməli fəaliyyətə keçən hazırkı hakimiyyət başçısı həm də erməni xalqına apardığı siyasətin düzgünlüyünü çatdırmaq, Ermənistanı iqtisadi blokadadan çıxarıb ölkəsinin iqtisadi inkişafına start verməyə çalışır.

Bu sonuncu qeyd etdiklərim artıq Ermənistan daxilindəki siyasi mübarizənin əsas məqsədidir. Bu gün N.Paşinyan siyasi gerçəkliyə uyğun siyasət yürüdür, revanşistlər və kilsədəkilər isə bunun tam əksini edir və Ermənistanı iqtisadi blokadada boğub ənənəvi erməni xəstəliyinə çevrilmiş "böyük Ermənistan" faşizm təxəyyülü üçün çalışırlar. Məncə çox tezliklə Ermənistanın öz daxilində Azərbaycanla sülh müqaviləsi imzalamaq, kommunikasiyaları açmaq və Ermənistanı iqtisadi layihələrə birləşdirmək istəyənlər qələbə qazanacaqlar. Çünki gerçək siyasət bunu diktə edir.Azərbaycan isə sülh gündəliyinə sadiqdir. Həmişə olduğu kimi...

# Kino sənətində yaşanan rejissor ömrü

Azərbaycan kino sənətinə daxil olan ən gözəl filmlərin yaradıcısı Rasim Ocaqov bu sahədə böyük izlər salmış, milli kinomuzun formalaşmasında, özünəməxsus dəsti-xəttinin müəyyənləşdirilməsində rol oynamışdır. Hər kəsin sevə-sevə izlədiyi "İstintaq", "Ad günü", "Təhminə", "Bağlı qapı", "Otel otağı" və digər filmlərin rejissoru olan Rasim Ocaqov çəkdiyi hər bir nümunədə milli dəyərləri ön planda verərək, haqqın, ədalətin müdafiəçisi olan qəhrəmanlarının simasında vətənpərvərlik hisslərini - vətənə, xalqa xidməti ifadə edib, hər bir obrazın dolğun və təbii alınmasında aktyorun bacarıqlarının üzə çıxarılması istiqamətində tələbkarlığı irəli sürmüşdür. Bu, onun sənətkarlıq xüsusiyyətlərindən irəli gələn amillərdən biridir ki, Rasim Ocaqov, məhz bitkin xarakterləri çəkdiyi film üçün bunu əsas götürüb, onu tamaşaçısına bir İNSAN kimi təqdim edirdi. Təbii ki, bu ifadənin arxasında çox məfhumlar dayanır. İnsana məxsus olan ali hisslərə Rasim Ocaqovun filmlərində rast gəlinir və bu nümunələrdə insan özünü axtarıb tapmağa çalışır. Daxilində yatan hissləri saf-çürük etməyə, məqsəd və məramının kimə və nəyə xidmət etdiyini üzə çıxarmağa cəhd göstərir. Bu hal rejissorun qəhrəmanlarının vasitəsi ilə insanları düşündürməyə vadar etməsindən irəli gəlir. Rasim Ocaqov həqiqətən elə böyük sənətkarlar sırasındadır ki, onun çəkdiyi filmlərdəki ideal qəhrəmanlar cəmiyyətdə insanların ölçü vahidinə çevrilib. Bu baxımdan ki, həm rejissorun sənətkarlıq xüsusiyyətləri, həm filmlərin ideya məzmunu, həm də filmlərdə rol almış aktyorların istedadı tamaşaçını aliliyə səsləyir. Hər şeydə yüksəklik axtaran bu insan ömrünün sonuna qədər rejissor olaraq çəkdiyi filmlərlə yaşamış, onların Azərbaycan kinosu tarixinə həkk olunmasına nail olmuşdur. Bu gün adını böyük ehtiramla çəkdiyimiz respublikanın xalq artisti Rasim Ocaqovun anım günüdür. Tarixin bu günü-11 iyul tarixində böyük sənətkar cismani olaraq dünyadan köç etmiş, yaratdığı sənət nümunələri ilə xalqın yaddaşında, kino sənəti tarixində özünəməxsus bir salnamə yaratmışdır. Bu salnamə onun yaradıcılıq dünyası ilə zəngindir. Rasim Ocaqov Azərbaycanın bir çox sənətkarları ilə çəkiliş meydançasında olmuş və maraqlı obrazların yaradıcısına çevrilmişdir.











## "ÇƏKİLİŞ MEYDANÇALARINDA KAMERA MƏNİM ÜÇÜN YOXA ÇEVRİLİRDİ"

Müasirləri olan sətətkarların Rasim Ocaqovla bağlı xatirələrə zəngindir. Azərbaycan Dövlət Mükafatları laureatı, xalq artisti, professor Şəfiqə Məmmədova onunla bağlı xatirələərindən danışarkən bildirib ki, Rasim Ocaqovun çəkdiyi "Ad günü", "İstintaq" filmlərində, çəkiliş meydançalarında olmuş, sənətkarlıq və insani xüsusiyyətlərini daha dərindən dərk etmişdir. "Qeyd etdiyim filmlərə qədər Azərbaycan kinosunda "Qaraca qız", "Bizim Cəbiş müəllim", "Dədə Qorqud" kimi filmlərdə çəkilmiş, kifayət qədər şöhrət qazanmışdım. Onu da deyim ki, teatr sahəsində fəaliyyətim də xüsusilə geniş idi. Teatr aktyoru kimi geniş bir repertuara malik idim. Rasim Ocaqov ilk dəfə məni rejissoru olduğu "Tütək səsi" filminə dəvət etsə də, nədənsə orada çəkilmək mənə nəsib olmadı. Onunla ilk işim çəkdiyi "Ad günü" filmində olmuşdu. Həmin filmdə yaratdığım obraza görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. Onun rejissoru olduğu ikinci çəkildiyim film - "İstintaq"da yaratdığım obraza görə isə SSRİ Dövlət mükafatı laureatı adını qazanmışam. Rasim Ocaqovla mənim fəaliyyətim çox uğurlu alınmışdır. Mən sənət aləmində bir aktyor kimi azadlığı onun çəkdiyi filmlərdə tapa bilmişdim. Sanki çəkiliş meydançalarında kamera mənim üçün yoxa çevrilirdi. Bu azadlığı, sərbəstliyi sənət aləmində tapmağımı Rasim Ocaqovun böyük peşəkarlığa malik olması ilə əlaqələndirirəm. Onu mən özümə həm dost, həm də ustad kimi qəbul edirəm. Rasim Ocaqov Azərbaycan kino sənətinə daha da böyük nümunələr bəxş edə bilərdi. O, ömrünün son gününə, son nəfəsinədək bu sahədə çalışmaq, yaratmaq arzusunda idi. Çox böyük rejissor olan Rasim Ocaqov sənət dünyasında özünü tapdığına görə, hər zaman xoşbəxt olduğunu səmimi etiraf edərdi. Mən çox fəxr edirəm ki, belə bir sənətkarın yaratdığı filmlərdə əsas rolların yaradıcısına çevrilmişəm. Aktyor seçiminə gəlincə deyim ki, olduqca zövqlü olan rejissor rol həvalə edəcəyi şəxsdə istədiklərini görə bilməsəydi qəhrəmanın həyatını həmin sənətkara tapşırmazdı".

## KİNONUN GƏLƏCƏYİNİ DÜŞÜNƏN REJİSSOR

Rasim Ocaqov nəinki Azərbaycanda tanınmış rejissor idi, eləcə də, SSRİ miqyasında böyük sənətkar kimi özünü təsdiqləmişdi. Azərbaycan kino sənətinin rejissorları sırasında birincilərindəndir. Rasim Ocaqov istedadlı sənətkar olmaqla yanaşı, olduqca gözəl insan, maraqlı həmsöhbət olub. Həyatını kinosuz təsəvvür etməyən sənətkar daim axtarışda idi. Daim yaratmaq, yeni filmlərə quruluş vermək Rasim Ocaqovun amalı idi. Kinosuz yaşaya bilməsə də, ona son illərdə təqdim olunan ssenariləri qəbul etmir, kinonun gələcəyini düşünürdü.

Qeyd edək ki, Rasim Ocaqov 1933-cü il noyabr ayının 22-də Azərbaycanın Şəki şəhərində anadan olub. 1951-1956-cı illərdə Moskvada ÜDKİ-nin kinooperatorluq fakültəsində təhsil alıb. Daha sonra M.A.Əliyev adına ADİİ-nun rejissorluq fakültəsini bitirib. 1956-cı ildən "Azərbaycanfilm" kinostudiyasında quruluşçu-operator, 1973-cü ildən quruluşçu rejissor işləyib. Ötən əsrin 50-ci illərin sonlarında Bakı kinostudiyasında ilk çəkilişlərinə başlayıb. 1957-ci ildə ilk dəfə operator kimi "Bir məhəlləli iki oğlan" filmini lentə alıb. Filmdə baş operator Marqarita Pilixina olub. "Onun böyük ürəyi" (1958) filmi R. Ocaqovun ilk sərbəst işi idi. Film Sumqayıt metallurqlarının həyatına həsr olunmuşdu. Bu ağır peşə adamlarının ekran həyatı operatorun kamerası ilə romantik və cəzbedici bir formaya salınmışdır. Bundan sonra lentə aldığı "Əsl dost", "Bizim küçə", "Mən rəqs edəcəyəm", "Sən niyə susursan?" və "Skripkanın sərgüzəşti" filmlərində Rasim Ocaqov Azərbaycan kinosunda operatorluq sənətinin ən layiqli nümunələrini yaratdı.

## YARATDIĞI FİLMLƏRLƏ ƏBƏDİLİYƏ QOVUŞDU

Rejissor kimi ilk işi 1975-ci ildə yarımçıq qalmış "Gəncəbasarlı qisasçı" filmini tamamlamaq olmuşdur. Bu tarixi-qəhrəmanlıq janrında çəkilən filmdə o qəhrəmanların ifaçılarını dəyişdi, ssenarini yenidən işlədi. Qatır Məmmədin obrazını isə aktyor Şahmar Ələkbərova tapşırdı. Film ekranlara çıxanda isə müəyyən iradlar deyilsə də, bütövlükdə filmin uğurlu olduğu mətbuatda geniş qeyd edildi. Onun ikinci rejissor işi "Tütək səsi" filmi oldu. "Tütək səsi" öz orijinal səhnələri, çəkiliş manerası, mövzunun bədii həlli baxımından Azərbaycan kinosuna xeyli yeniliklər gətirdi. Bundan sonra çəkdiri "Ad günü", "Bağlı qapı", "Özgə ömür", "Park", "Ölsəm bağışla", "Həm ziyarət, həm ticarət", "İstintaq" filmlərində R.Ocaqov müasirlərinin əsl obrazını yaratmaqla tamaşaçıları ətrafa diqqətlə yanaşmağa, cəmiyyətdə baş verən neqativ hallara göz yummamağa çağırır. "Təhminə", "Otel otağı" kimi son filmlərində də ciddi mövzulara toxunur, yenə də insanın ətraf aləmə münasibəti mövzusunda söhbət açır.

Müasirlərinin sözlərinə görə, çəkiliş meydançalarında Rasim Ocaqov hər bir səhnəyə diqqət yetirir, aktyorun hərəkətlərinə həssaslıqla yanaşır, onda olan gücü bütövlükdə yaratdığı obraza verməyi tələb edirdi. Böyük sənətkar R.Ocaqov 2006-cı ildə Bakıda dünyasını dəyişib.

Dünyasını dəyişməsindən illər ötsə də, yaratdığı filmləri yaşayır.

***Zümrüd BAYRAMOVA***

# Demoqrafik inkişaf və göstəricilər



Azərbaycan Prezidentinin ölkəmizdə sosialyönümlü istiqamətində apardığı uğurlu siyasət nəticəsində əhalinin sosial rifah halı yaxşılaşıb, işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb. Bütün bu və ya digər amillər demoqrafik inkişafa ciddi təsirini göstərib. Əhalisinin sayı hər il, sabit şəkildə artaraq, 10 milyonu ötən Azərbaycanda dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla, demoqrafik inkişafa təkan verib. Bu, Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycanda iqtisadi inkişaf, sabitlik və əhalinin sosial rifahının yaxşılaşması istiqamətində görülən böyük işlərin nəticəsidir. Aparılan sosial-iqtisadi siyasətin əsas uğurlarından biri kimi, dayanıqlı inkişaf şəraitində Azərbaycanda müsbət demoqrafik şərait bərqərar olub. Azərbaycan, bir çox sahələrdə olduğu kimi, bu baxımdan da, nümunəvi ölkədir. Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində, bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də, davamlı olaraq, yaxşılaşması özünü göstərir. Azərbaycanda hər il doğulanların sayı artır, misal üçün, 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir.

Məlumdur ki, dünya əhalisinin demoqrafiyası tarixin müxtəlif dönəmlərində sabit olmamış, hər zaman dəyişikliyə məruz qalmışdır. Statistik göstəricilərə nəzər salsaq görərik ki, 1900-da dünya əhalisi 1.6 mlrd., 1960-da 3 mlrd., 2000-də 6 mlrd. olmuşdur. Demoqrafların hesablamalarına görə dünya əhalisi bu sürətlə artmağa davam etsə 2040-də dünyamızda 10 mlrd. insan yaşayacaq. 2100-cü ilə qədər isə 16 milyarda çatacaq və bu da əhali sıxlığının bəzi ölkələrdə yoxsulluq və müharibələrə səbəb olacağı ehtimalı yaratmış olur.

Dünyada ən sürətli təbii artım 1950-1970 illərində müşahidə olunmuşdur. Ən çox təbii artım isə 1963-cü ildə qeydə alınmışdır. Bu zaman dünyanın təbii artımı 2,2% təşkil edib. Əhalisinin sayına görə, ilk üç yerdə Çin, Hindistan və ABŞ qərarlaşıb. Bildiyimiz kimi, 11 iyul Ümumdünya Əhali Günü kimi qeyd olunur. Bu əlamətdar tarixi 1989-cu ildə BMT-nin əhali problemlərinin həllinə yardım göstərən ən iri beynəlxalq təşkilatı olan Əhali Fondu təsis edib. Bu günün qeyd olunmasında məqsəd ailə planlaşdırılmasının əhəmiyyəti, gender bərabərliyi, yoxsulluq, qadın sağlamlığı və insan hüquqları kimi dünya əhalisi ilə bağlı müxtəlif məsələlər barədə məlumatlılığı artırmaq, insanların problemlərinə xüsusi diqqət yetirmək və ümumi inkişafa nail olmaqdır.

Dünya əhalisinin demoqrafiyasını və onun qanunauyğunluqlarını öyrənmək iqtisadi coğrafiyanın əsas vəzifələrindən biridir. Demoqrafiya yunan sözüdür. Demos - xalq, qrafos - yazıram deməkdir. Demoqrafiya əhali artımının qanunauyğunluqları, onun sosial-iqtisadi şəraitdən, təbii amillərdən asılılığını, miqrasiyanı, əhali sıxlığını və onun paylanmasını öyrənən elmdir.

## CƏMİYYƏTDƏ MADDİ NEMƏTLƏRİN ƏSAS İSTEHSALÇISI

Dünya əhalisi yaş strukturuna görə 3 qrupa bölünür. Birincisi, 0-14 yaş qrupu. Bu yaş qrupu dünya əhalisinin 34%-ni təşkil edir. İkinci yaş qrupu isə 15-65 yaş qrupudur. Bu yaş qrupu cəmiyyətdə maddi nemətlərin əsas istehsalçısıdır. Bu yaş qrupuna dünya əhalisinin 58% cəmlənib. Üçüncü yaş qrupuna isə 65 yaşdan yuxarılar aiddir. 65 yaşdan yuxarılar isə dünya əhalisinin 8% tutur. Əhalinin cins tərkibində isə yeni doğulan uşaqlar arasında oğlanların sayı çoxdur. Yeni doğulan hər 100 qıza 104-107 oğlan düşür. 15 yaşına qədər oğlanların və qızların yaşı bərabərləşir. Sonrakı dövrlərdə yaş strukturunda qadınların payı artır. Bunun müxtəlif səbəbləri var. Bu ilk növbədə qadınların orta ömrünün kişilərin orta ömrünə nisbətən çox olması ilə əlaqədardır. Dünya ölkələrində qadınlar kişilərdən çoxdur. Yəni qadınlar dünya əhalisinin 51%, kişilər isə 49% təşkil edir. Ancaq bəzi Asiya və Afrika ölkələrində bu nisbət dəyişir. Buna səbəb erkən nikah, çoxuşaqlılıq, cəmiyyətdə və ailədə qadının hüquqlarının tapdalanması və qadınlara qarşı zorakılıqdır.

## DÜNYANIN ƏN GƏNC QİTƏSİ

Dünya əhalisinin orta sıxlığına gəlincə isə bir çox faktorlara görə regiondan regiona dəyişir. Hazırda dünya əhalisinin orta sıxlığı hər km2 45 nəfərdir. Dünya əhalisinin böyük hissəsi yəni 85%-i şərq yarımkürəsində yaşayır. Əhalinin sıxlığına görə birinci yeri Banqladeş tutur. Avropada isə sıxlığına görə ilk yerləri Niderland və Almaniya tutur. Burada sıxlıq hər km2 2000 nəfərdir. Dünyanın ən çox sıx məskunlaşmış əraziləri Şərqi və Cənub-Şərqi Asiya, Çin, Koreya, İndoneziya, Vyetnamdır. Bu ərazilərdə 2 milyard əhali yaşayır.

Sosioloqlar belə müəyyən etmişlər ki, insan bioloji varlıq kimi 100-140 il yaşaya bilər. Ancaq, faktiki olaraq müxtəlif sosial-iqtisadi və ekoloji amillərin təsiri nəticəsində insan bu yaşdan çox az yaşayır. Ancaq son dövrlər insan ömrünün uzanması müşahidə olunur. Belə ki, 1950-ci ildə dünyada insanların orta ömür müddəti 50 il idisə, 1994-cü ildə 64,9 yaş, 2019-cu ildə 72,3 yaş olub. 2030-cu ildə isə daha iki ilədək artacağı proqnozlaşdırılır. Avropada 65 yaş və ondan yuxarı əhalinin sayı 19% təşkil edir. Bu rəqəm Şimali Amerikada 16%-dir. 2050-ci ildə isə bu göstəricilərin uyğun olaraq, 28% və 23% təşkil edəcəyi gözlənilir. Asiya, Latın Amerikası və Karib hövzəsində yaşlı sakinlərin sayı hazırkı 8%-dən 18%-dək artacaq. Hazırda Afrika dünyanın ən gənc qitəsidir. Ancaq 2050-ci ildə yaşlıların sayı 9 faiz təşkil edəcək. 2004-cü ilin statistikasına əsasən 66,7 il müəyyən olunmuşdur. Dünya əhalisinin orta ömür müddəti artsa da, ümumilikdə regionlar üztə fərq çox böyükdür. Önəmli fərq isə inkişaf etmiş və zəif inkişaf etmiş ölkələr arasında qeydə alınmışdır-28 yaş. Qadın və kişilərin orta ömür müddəti arasında da nzərəçarpacaq fərq vardır. Belə ki, doğulan zaman oğlan uşaqları qız uşaqlarında çox olsa da (100 qıza 104-107 oğlan) 15 yaşdan sonra onlar arasındakı fərq bərabərləşməyə başlayır, sonrakı yaş strukturunda da qadınların sayı üstünkük təşkil edir.



Buna bir çox amillər təsir göstərir. Təbii ki, dünya ölkələrindəki müharibələr, təbii fəlakətlər də insan ölümlərinə səbəb olur. Rusiya-Ukrayna müharibəsinə nəzər salsaq burada nə qədər sayda hərbi qulluqçunun, eləcə də dinc sakinin həlak olmasının şahidi olarıq. Ötən ilin statistik rəqəmlərinə əsasən, müharibə başlayandan həlak olan 40 mindən çox rusiyalı hərbçinin adı müəyyən edilib. Onlardan 15 min 520-si 2022-ci ildə, ən azı isə 24 min 100-ü isə 2023-cü ildə həlak olub. Rusiya ordusunun real itkiləri daha böyükdür. Rusiya tərəfinin müharibə başlayandan bəri ümumi itkilərinin sayı 531 980 nəfərə çatıb.

## MDB MƏKANINDA İLK DƏFƏ DEMOQRAFİK İNKİŞAF KONSEPSİYASI

Əlbəttə ki, müasir dövrün çağırışlarına cavab verən, sosial-iqtisadi inkişafı ilə diqqətdə olan Azərbaycan bütün beynəlxalq əhəmiyyət kəsb edən günlər kimi, Dünya Əhali Gününü də 2005-ci ildən etibarən qeyd edir. Son əsrlərdə Azərbaycandakı demoqrafik inkişafa nəzər salsaq görərik ki, 1897-ci ildə Azərbaycanda əhalinin sayı 1 milyon 807 nəfər, Birinci Dünya müharibəsindən əvvəl isə 2 milyon 339 nəfər olub. Dünya müharibəsi, azərbaycanlılara qarşı soyqırımı siyasəti, xarici müdaxilələr ölkə əhalisinin sayına mənfi təsir göstərib və 1920-ci ildə əhalinin sayı 1 milyon 952 nəfərə düşüb. 1980-ci ildə isə bu say 6 milyonu ötüb. 2000-ci ildə isə 8 milyondan artıq əhali qeydə alınıb.

Xatırlatmaq yerinə düşər ki, Azərbaycanda MDB məkanında, ilk dəfə olaraq, elmi əsaslarla işlənilib, demoqrafiya sahəsində dövlət strategiyasını müəyyən edən "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilib. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanmaqla, ölkəmizdə davamlı demoqrafik inkişafı təmin edilməsi üçün əhali sakinliyi və demoqrafik inkişaf sahəsində yeni Dövlət Proqramı layihəsi hazırlanaraq həyata keçirilib.

2020-ci ilin 1 dekabr vəziyyətinə görə Azərbaycan əhalisinin sayı 10 123 004 nəfər təşkil edib. Əhalinin sayı 2019-cu illə müqayisədə 0,6% artıb. 2021-ci il mart ayının 1-i vəziyyətinə 10 127 127 nəfərə çatıb. Bu rəqəmlər bir daha göstərir ki, əhalinin sayında artımlar müşahidə edilməkdədir. Statistik rəqəmlərə diqqət yetirsək görərik ki, 2000-ci ildə Azərbaycanda əhalinin sayı 8032,8 olmuşdur. Bunlardan şəhər əhalisi 51,1, kənd əhalisi isə 48,9 təşkil edib. 2024-cü ildə isə əhalinin sayı 10180,8 nəfər təşkil edib və şəhər əhalisi 54,5, şəhər əhalisi isə 45,5 faiz təşkil edir. Əhalinin 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Ölkə əhalisinin 3.057 milyonu 15-35 yaşında, 2.3 milyonu isə 14-29 yaşında olan gənclər təşkil edir. Bu, ölkəmizdə hər 3 nəfərdən birinin gənc olması deməkdir. Gənclərin 48.3 faizini qadınlar təşkil edir. Gənclərin 52.7 faizi şəhər, qalanı isə kənd yerlərində yaşayırlar. Cari ilin əvvəlindən ölkə əhalisinin sayı 5777 nəfər və ya 0,1 faiz artaraq 2025-ci il mart ayının 1-i vəziyyətinə 10230666 nəfər təşkil edib. Əhalinin 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri və idman kompleksləri istifadəyə verilir. Bununla yanaşı, dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla, səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir.

Bu gün ardıcıl olaraq həyata keçirilən islahatlar bizə deməyə əsas verir ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qohum nikahlar: rəsmini dövlət qadağan etdi, qeyri-rəsmini də biz edək!

***Bəzilərimizin şüurlu şəkildə, bəzilərimizin isə qeyri-şüurlu şəkildə dərk etdiyimiz qohum nikahlar kimin necə qəbul etməsindən asılı olmayaraq həqiqətən də insan cəmiyyəti üçün çoxsaylı problemdən başqa bir şey deyil. Lakin təəssüf ki, bunu hələ də yetərincə dərk etməyən, məsələnin əsl mahiyyətinin nədən ibarət olduğunu anlamayan insanlar var. Baxmayaraq ki, uzun illər boyu övladları gözləri önündə müxtəlif qan xəstəliklərindən əziyyət çəkir, xəstəxana-xəstəxana, həkim-həkim gəzirlər, lakin hələ də bunun səbəbkarının qohum nikah olduğuna inanan çox az adam var.***

Belə də olub ki, qan qohumu olan iki gənc ailə qurub, lakin övladları sağlam doğulub. Bax, bu məsələ də uzun illər insanları çaş-baş salıb. Qohum nikah problem yaradır deyəndə, "Odur filankəs də qohum nikah ilə ailə qurub, iki-üç sağlam övladı doğulub, siz nə danışırsınız?",- deyən çoxsaylı insan var. Lakin bir məsələni həmişə anlamaq istəməmişik deyim, dərk etməmişik deyim, ola bilər ki, qohum evlilikdə xəstə uşaq doğulmasın, lakin bu uşaqların gələcəkdə dünyaya gətirdiyi övladlarında və yaxud övladlarının övladında qohum evliliyin fəsadları özünü göstərəcək. Odur ki, anlamağa çalışaq ki, ümumilikdə qohum nikah bizə dərdbəladan, qəm-kədərdən başqa heç nə vermir. Elə buna görə də bəzi ölkələrdə ən azı dörd, yeddi nəsil sonra qohum evliliyinə icazə verilir.

## Uzun illər boyu...

"Qardaşımın gül kimi qızı var, oğlum, onu almalısan, "Bacı, qızın, bax, mənim oğlumundur", "Qardaş, qızınla oğlumu göbəkkəsdi etmişik ha, yadından çıxarma", "Bacı, qızınla oğlum beşikkəsdidir ha, birdən başqasına verərsən" kimi sözləşmələr, istəklər övladlarımız başqasını seçsə də, qəlbini başqasına versə də, daha üstün gəlib. Valideyn diktəsi, arzusu, istəyi, "sözü" gəncləri zaman-zaman öz sevdiyindən ayırıb. Gözlər yaşarıb, qəlblər parça-parça olub, sevənlər bir-birindən ayrılıb, bir ömür gözləri bir-birini axtarıb, lakin bütün bunları ürəyinə gömüb ana-ata xətrinə onların bacı-qardaşlarının övladları ilə ailə qurublar.

Belə nikahlardan dünyaya çoxsaylı xəstə uşaqlar gəlib. Nəticədə də çoxsaylı qohum evliliyi pozulmalı olub. Dünənədək birbirinə can deyib-can eşidən bacı-qardaş, qardaşlar və bacılar bir-biri ilə düşmən olublar. Tək xəstə uşaqların doğulması ilə deyil, yox, elə olub ki, gənclər baxmayaraq ki, əmiqızı-əmioğludur, dayıqızı-bibioğludur, lakin ailədə xasiyyətləri tutmayıb, bir-birini ər-arvad kimi anlaya bilməyiblər. Aralarında sevgi olmadığından münasibətlər yaxşıya doğru yön almayıb. Bundan sonra iki qardaş olub düşmən. Biri günahı qardaşının qızında, o biri qardaşının oğlunda görüb. İki bacı olub ömürlük düşmən, bir-birini görəndə yollarını dəyişib, üz-üzə gəlmək belə istəyiblər. Bacının biri günahı bacısı qızına, o biri bacısı oğluna yükləyib.

Deməli, qohum nikahlar sağlamlıq imkanı məhdud uşaqların dünyaya gəlməsi ilə yanaşı, həm də çox vaxt qohumluq münasibətlərini sonlandırır. Qardaş-bacı arasına nifaq salır. Axı bütün bunların dəfələrlə şahidi olmuşuq.

## Dövlətimiz bizi özümüzdən çox düşünür

Bəli, biz özümüz özümüzü, doğulan xəstə uşaqları nədənsə göz ardına aldıq zaman-zaman. Lakin ölkədə qohum nikahlardan doğulan xəstə uşaqların statistikası hər il bir qədər qabardıqca, dövlətimiz bunun yaxşı bir gələcək vəd etmədiyini gördü və qarşısını almaq üçün yollar axtardı. Uzun illər maarifləndirmə işlərinə başlandı. Aid qurumlar, mətbuat vaxtaşırı bu barədə hərtərəfli məlumatlar verdi, araşdırmalar apardı, nəticələri xalqa çatdırdı. Lakin təəssüf ki, beynimizə hopan stereotiplərdən yaxa qurtara bilmədik. Bütün bunların bizim xeyrimizə olduğunu dərk etmədik.

Ötən il Milli Məclisdə qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqlarının və bioloji qohumluğu olan əmi (dayı) və qardaş (bacı) qızı, həmçinin bibi (xala) və qardaş (bacı) oğlunun nikaha daxil olmasının qadağan edilməsi müzakirə edildi, qanun layihəsi qəbul olundu və dövlət başçısı tərəfindən 28 iyun 2024-cü il tarixdə Ailə Məcəlləsində edilən dəyişiklik təsdiqləndi. Beləliklə, 2025-ci ilin 1 iyul tarixindən yuxarıda qohumluq dərəcəsi göstərilən qohumlar arasında nikahın bağlanması qadağan olundu.







Göründüyü kimi, dövlətimiz bizi özümüzdən daha çox fikirləşir, gələcəyimizin qeydinə bizdən daha çox qalır. Hansı ki, bütün bu məsələlərdə biz dövlətə kömək etməli, genofondumuz, sağlam gələcəyimiz naminə bunu biz etməliyik. Çox təəssüf ki, nə qədər deyilsə də, qulaqlarımız kar oldu, eşitmədik, yenə də qohum gənclərin bir-biri ilə nikaha daxil olmasından çəkilmədik. Nəticədə isə minlərlə uşaq bizim qurbanımız oldu. Onların sağlamlığını, gələcəyini əllərindən aldıq. Həmyaşıdlarında olan aktiv həyatı, sağlam bədəni, zəkanı onlardan aldıq. Öz istəklərimizin qurbanına çevirdik onları. Eləcə də o uşaqların valideynlərinin üzərinə ömürlük bir yük qoyduq. Sağlamlıq imkanı məhdud uşaq böyütmək, onun cəmiyyətə inteqrasiyasına nail olmaq heç də asan məsələ deyil. Bunu xəstə uşağı olanlar bilər.

Hər birimiz dəfələrlə qohum nikahlardan doğulan uşaqların aqibəti ilə rastlaşmışıq. Heç kim deyə bilməz ki istər qonşuluqsa, istər qohumlar arasında belə uşaqlarla qarşılaşmayıb. Çox təəssüf ki, biz qarşımızdakı mənzərəyə yalnız baxmışıq, onun ağırlığını, əsl mahiyyətini görə bilməmişik.

Beləliklə, bu gün şüurlu, normal insanların hər biri dövlətin təşəbbüsünü, qərarını alqışlayır. Qohumlar arasında rəsmi nikah dövlət tərəfindən qadağan edildi, bəs qeyri-rəsmi nikahlar, bax bunlara biz qadağa qoymalıyıq: bir-birimizi qınaq etməklə, doğru yol göstərməklə, nələrin baş verəcəyindən xəbərdar etməklə.

## Altı aya 1429



## qohum nikah

Elə ki, gələn ildən-yeni 2025-ci ilin iyul ayının 1-dən bioloji qohumluğu olan şəxslərin nikaha daxil olmasının qadağan edilməsi xəbərini aldıq, dedik nə edək, etməyək, o tarixədək təcili övladlarımızın toy mərasimini reallaşdıraq. Beləliklə, bioloji qohumluğu olan şəxslər arasında cari ilin yanvar ayında 252, fevralda 131, martda 176, apreldə 139, mayda 271, iyunda isə 460 nikah qeydə alınıb. 2024-cü ilin yanvar ayında isə 155, fevralda 113, martda 116, apreldə 111, may ayında 121, iyunda 134 belə nikah rəsmiləşdirilmişdi. 2021-ci ildə 2199, 2022-cü ildə 2542, 2023-cü ildə 1950, 2024-cü ildə 2060 belə nikah qeydə alınıb.

Budur, bax, bu rəqəmlər bizim şüurumuzun hələ də geridə olduğundan, baxmayaraq ki, məsələyə dövlət səviyyəsində yanaşma olub, hələ də məsələnin mahiyyətini dərk etməkdə geridə qaldığımızdan xəbər verir.

Bu ilin altı ayında 1429 qohum nikahın bağlanması və statistikanın əvvəlki illərin müvafiq dövrü ilə müqayisədə daha qabarıq olması, el arasında deyildiyi kimi, "tez-bazar" toylardan, nikahlardan xəbər verir.

Əslində bu rəqəmlər adamı bir qədər də düşünməyə vadar edir. Düşündükcə acı bir gülüş də doğur. Nəyə görə? Ona görə ki, sanki insanlar düşünür ki, qohum nikahların qadağan edilməsi bu qədər narahatedici bir məsələ deyil, lakin qanuna dəyişiklik olunub da, həmin tarixə kimi biz öz bildiyimizi edək. Qanunun nə üçün qəbul edildiyinin görünür ki, fərqinə vara bilməyən minlərlə insan yaşayır cəmiyyətimizdə. Elə götürək 1429 ailənin hər birində iki gənci, onların hər birinin iki valideynini, yaxın qohum-əqrəbasını. Deməli, aramızda minlərlə insan hələ də qohum nikahın nə üçün qadağan edildiyi barədə bir cümlə də dərk etmir.

Beləliklə, nə baş verəcək? Rəsmi nikaha daxil ola bilməyən qohumlar qeyri-rəsmi nikaha baş vuracaqlar. Çünki dərketmə bizdə həqiqətən aşağı səviyyədədir. Belə olan təqdirdə isə yeni problemlər ortaya çıxacaq. Bunun da dəhşətini yalnız uşaqlar yaşayacaq: həm sağlamlıq cəhətdən, həm də hüquqi cəhətdən.

## Günahkar olmayaq!

Müasir dövrdə qohum qızı bacı, oğlanı qardaş kimi qəbul edən və belə nikahların yolverilməz olduğunu vurğulayan çoxsaylı gənc var. Lakin təəssüf ki, ata-ana, nənə-baba, dayı-xala, bibi-əmi nəsihətini, məsləhətini dinləyən, hələ də onlara qarşı çıxmaq cəsarətində olmayan da çoxsaylı gənc var.

Bu məsələdə ən böyük günahkar isə böyüklərdir. Gəncləri bu evliliyə sövq edən, bunun üçün onların beynini qarışdıran, ağır nəticələri onların çiyninə yük kimi qoyan böyüklər. Qoy onlar bilsinlər ki, bununla böyük günaha, problemlərə yol açırlar.

Kimdir günahkar? Gəlin onu ittiham edək. İttiham edək ki, başqalarına da dərs olsun. Qan qohumluğuna razılıq verənlər minlərlə sağlamlıq imkanı məhdud uşağı görə bilib utansınlar. Onların gələcəyə olan arzularını ürəklərində qoyduqları üçün xəcalət çəksinlər. Övladlarının qüsurlu övladlarını görəndə günahkar olduqlarını dərk etsinlər. Gözlərini açıb müasir dünyaya yaxşı-yaxşı baxıb, radio-televiziyanın, qəzet və jurnalların qan qohumluğu ilə bağlı "bar-bar bağıran" verilişlərini dinləsinlər, yazılarını oxusunlar. Qan qohumluğuna, yox, desinlər. Bunun gələcək nəsillərin inkişafına, sağlamlığına mənfi təsiri olduğunu dərk etsinlər.

Dövlətimiz tərəfindən rəsmi olaraq bioloji qohum nikahlar qadağan edildi. Bunu qeyri-rəsmi həyata keçirməyin: birincisi, heç bir qızı evinizdən nikahsız çıxarmayın. İkincisi, doğulacaq uşağı hüquqi cəhətdən problemlərlə üz-üzə qoymayın. Üçüncüsü, xəstə uşaqların doğulmasına vasitəçi olmayın.

Qohum elə qohumdur. Gəlin yadlarla qohum olaq ki, qohumlarımızın sayı artsın.

***Mətanət Məmmədova***

# Qəzzada sığınacaq axtarışı

## *HƏMAS ilə danışıqlar və ÇAXAL-ın yerləşdirilməsi*





***İsrailin baş naziri Benyamin Netanyahu iyulun 8-də axşam Ağ Evdə ABŞ prezidenti Donald Trampla 24 saat ərzində ikinci görüşü keçirib. Görüş tamamilə Qəzza zolağındakı vəziyyətə və atəşkəs perspektivlərinə həsr olunub. Vaşinqton İsrail və radikal HƏMAS qrupunun bu həftə 60 günlük "atəşkəs"in şərtləri ilə bağlı razılığa gəlməsini gözləyir. Hazırda yeganə mübahisəli məsələ İsrail Müdafiə Qüvvələrinin (IDF) Qəzzada fəaliyyət göstərən bölmələrinin fasilə zamanı harada yenidən yerləşdiriləcəyidir. Yaraqlılar İsrail hərbçilərinin anklavın mərkəzi hissəsində qalmasının və ona nəzarət edə bilmələrinin əleyhinədirlər.***







Benyamin Netanyahu iyulun 8-də ABŞ-a səfəri zamanı Donald Trampla ikinci görüşünü, daha sonra isə ABŞ-ın vitse-prezidenti J.D.Venslə qısa söhbət etdiyini deyib. "Biz bütün diqqətimizi qaçırılan insanları azad etmək üçün səylərə yönəltmişik", - Baş nazir bildirib. "Biz bundan bir an belə əl çəkmirik və bu, qəhrəman əsgərlərimizin NƏMAS-a göstərdiyi hərbi təzyiq sayəsində mümkündür. Təəssüf ki, biz bunun üçün yüksək qiymət verməliyik: oğullarımızın ən yaxşıları ölür". Lakin İran və onun regiondakı müttəfiqlərinə qarşı uğurlu əməliyyatlardan sonra İsrail Qəzzada bütün məqsədlərinə çatmaq əzmindədir. Buraya 2023-cü il oktyabrın 7-də qətliam zamanı oğurlanmış girovların azad edilməsi və HƏMAS-ın "hərbi və inzibati imkanlarının məhv edilməsi" daxildir - beləliklə, İsrail tərəfinin Qəzzadan yəhudi dövləti üçün təhlükənin bir daha heç vaxt gəlməyəcəyinə dair etibarlı təminatları olsun, cənab Netanyahu izah edib.

HƏMAS-ın sözçüsü İzzat ər-Rişk baş nazirin açıqlamasına cavab olaraq bildirib ki, cənab Netanyahunun sözlərinin "yerdəki real vəziyyətlə heç bir əlaqəsi yoxdur". İzzat ər-Rişk "Qəzza təslim olmayacaq", deyib: "Və gələcək razılaşmanın şərtlərini təyin edən HƏMASdır". Qrupun nümayəndəsi qeyd edib ki, İsrailin girovlarını əsirlikdən azad etməyin yeganə yolu "ciddi sövdələşmə" etməkdir, çünki İzzət ər-Rişk hesab edir ki, İDF-nin öz yoldaşlarının əlində olan hər kəsi geri qaytarmaq cəhdləri uğursuzluqla nəticələnib.

İsrail və HƏMAS arasında Qətərdə aparılan dolayı danışıqlara nəzarət edən ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiv Vitkoff iyulun 8-də oranı tərk etməli idi, lakin səfəri təxirə saldı, vəziyyətlə tanış olan iki mənbə The Times of Israel qəzetinə bildirib. Buna baxmayaraq, o, bu həftə Dohaya uçmaq ümidini itirməyib və bu, münaqişə tərəflərinin kompromisə yaxın olması ehtimalı ilə bağlıdır.

"Ümid edirik ki, bu həftənin sonuna qədər bizi 60 günlük atəşkəsə aparacaq razılaşma əldə edəcəyik", - deyə cənab Vitkoff iyulun 8-də bildirib. "Hazırda dolayı danışıqlardayıq və bizim dörd (mübahisəli - "Kommersant") məsələmiz var idi və indi, iki günlük danışıqlardan sonra yalnız bir məsələ qalıb.

Bir sıra Amerika və regional nəşrlər insayderlərə istinadən bildirirlər ki, həll olunmamış qalan məsələ 60 günlük "atəşkəs rejimi" ərzində İsrail qoşunlarının çıxarılacağı yerdir. Əmirliyin The National nəşri ilə söhbətində Amerika rəsmilərindən biri bildirib ki, İsrail əvvəlcə şərq sərhədindən 6,5 km-ə qədər məsafədən Qəzzaya İDF bölmələrinin daxil olmaq hüququna malik olacağı xəritələr təqdim edib. Sahil anklavının eninin cəmi 10 km olduğunu nəzərə alan Həmas bununla razılaşmayıb. Sonra İsrail tərəfi yenidən yerləşdirmə üçün yeni yerlər təyin edərək güzəştə getdi.

Tramp administrasiyası təkid edir ki, tərəflər buna əməl edərsə, iki aylıq atəşkəs avtomatik olaraq uzadılsın. "Bu atəşkəs 60 günlük olsa belə, iki tərəf arasında aparılan danışıqlar daimi nizamlanmaya səbəb olana qədər avtomatik və uzadılacağına zəmanət veriləcək", - deyə adı açıqlanmayan ABŞ rəsmisi The National-a bildirib. Axios mənbələrinə görə, "atəşkəs"in uzadılması ideyası HƏMAS-ın əsas tələblərindən birini təmin etmək məqsədi daşıyır: atəşkəs başa çatdıqdan sonra İDF-nin Qəzzada zərbələri bərpa edə bilməyəcəyinə zəmanət.

Qəzza sövdələşməsi həmçinin İsrailin Qara Şənbə qurbanlarının diri və ölülərinin tədricən azad edilməsi müqabilində İsrail həbsxanalarında saxlanılan Həmas üzvlərini azad etmək öhdəliyini də ehtiva edir. HƏMAS-ın əsirliyində yalnız 20 girov (hamısı gənc kişi) və 30 ölü cəsədi qalıb. Bu barədə Knesset üzvlərinə iyulun 6-da keçirilən xüsusi brifinqdə Netanyahunun ofisinin nümayəndələri məlumat veriblər.

**V.VƏLİ**

# Azərbaycan diplomatiyasının uğurları

## Prezident İlham Əliyev: "Ölkəmizin beynəlxalq birliyin fəal üzvünə çevrilməsində diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri var"

Azərbaycan müstəqil dövlət olaraq bütün sahələrdə olduğu kimi, xarici siyasətlə bağlı qanunvericilik bazasının yaradılması və beynəlxalq konvensiyalara qoşulmaq istiqamətində böyük uğurlar qazanıb. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının təkidi ilə hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə olduğu kimi, xarici siyasətin həyata keçirilməsi istiqamətində də ardıcıl işlər görüldü. Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınmağa başladı, bir sıra dövlətlərlə diplomatik əlaqələr quruldu. Ümummilli Liderin hazırladığı mükəmməl xarici siyasət strategiyasının məntiqi nəticəsi olaraq, ölkəmiz bütün regional məsələlərdə həlledici söz sahibinə çevrildi. Xarici siyasətdəki uğurlar müstəqil dövlətimizin mövqelərini xeyli möhkəmləndirdi.

Müasir Azərbaycan dövlətinin Qurucusu, Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin varisi və Onun siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və milli maraqlara cavab verən siyasəti nəticəsində Azərbaycan dünyada, beynəlxalq aləmdə söz sahibidir. Azərbaycan Prezidenti çıxışlarının birində qeyd etmişdir ki, "Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan, beynəlxalq aləmdə böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı daim artır... Azərbaycan bütün dünyada etibarlı tərəfdaş kimi tanınır, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir və buna görə də ölkəmizə böyük hörmət və rəğbətlə yanaşırlar".




### AZƏRBAYCAN DİPLOMATİYASININ İLK ADDIMLARI

Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyevin 24 avqust 2007-ci il Sərəncamı ilə müsəlman dünyasında ilk Demokratik Respublikanın yaradılmasında və müasir dövrdə müstəqil Azərbaycan dövlətinin qurulması prosesində milli diplomatiyanın rolunu nəzərə alaraq və 1919-cu il iyul ayının 9-da Azərbaycan Cümhuriyyəti Xarici İşlər Nazirliyinin katibliyinə dair müvəqqəti təlimatın qəbul edildiyini əsas tutaraq hər il 9 iyul Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilir. Artıq Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının yaradılmasından 106 il ötür. Azərbaycan diplomatiyası ilk addımlarını atdığı dövrdə - 1919-cu ildə Bakıda 16 xarici dövlətin, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, İsveç, İsveçrə, Belçika, İran, Polşa və Ukraynanın diplomatik nümayəndəlikləri fəaliyyət göstərib.

1920-ci il yanvarın 11-də Paris Sülh Konfransında Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin de-fakto tanınmasından sonra Azərbaycan Hökuməti tərəfindən Qərbi Avropa və Amerika ölkələrində diplomatik nümayəndəliklərin təsis olunması ilə bağlı qanun layihəsi hazırlanıb. Bu addım, gənc dövlətin beynəlxalq aləmdə tanınması və möhkəmlənməsi istiqamətində əhəmiyyətli bir mərhələ idi. Lakin 1922-ci il dekabrın 30-da Moskvada Birinci Ümumittifaq Sovetlər qurultayında SSRİ-nin yaradılması haqqında müqavilə imzalandı. Bununla da Azərbaycanın müstəqil xarici siyasət fəaliyyəti tamamilə dayandırıldı. Mənbələrə əsasən, 1923-cü il oktyabrın 8-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin 529 saylı əmrinin birinci paraqrafı ilə Türkiyə və İran istisna olmaqla, Azərbaycanda fəaliyyət göstərən bütün diplomatik nümayəndəliklər ləğv edildi.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycan xalqının təkidi ilə hakimiyyətə qayıtdıqdan sonra milli dövlətçiliyin qurulması prosesi Xarici İşlər Nazirliyi sistemini də əhatə edib. Ümummilli Lider Azərbaycanın xarici siyasətinin strateji ana xəttin müəyyən etdi. Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli maraqlarının və mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Heydər Əliyev zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini qarşıya məqsəd kimi qoymuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxartmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq informasiya blokadasını yarmaqdan ibarət idi.

Digər mühüm vəzifələrdən biri də bəzi dövlətlər ilə münasibətlərdə əsassız yaradılmış gərginliyi aradan qaldırmaq, balanslı və milli maraqlara əsaslanan xarici siyasət xəttini təmin etmək, region dövlətlərlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin qorunmasına nail olmaq idi. Qarşıda duran ən mühüm vəzifələrdən biri də münaqişənin ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi şərti ilə ədalətli şəkildə həll olunması üçün böyük dövlətlərin, eləcə də beynəlxalq təşkilatların səylərini gücləndirməyə nail olmaqdan ibarət idi.



### QLOBAL DİPLOMATİK PLATFORMALARDA ARTAN NÜFUZU

Azərbaycan Prezidentinin xarici siyasəti xalqımızın mənafeyini, müstəqil dövlətimizin inkişafını və perspektivlərini müəyyənləşdirir. Dövlət başçımızın dünya səviyyəsində həyata keçirdiyi balanslaşdırılmış xarici siyasəti Azərbaycanı inkişaf etmiş demokratik ölkələr sırasına çıxarıb. Demokratik və müstəqil dövlət kimi kimi tanınan Azərbaycan çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda ölkə həqiqətlərini dünyaya çatdırır, Azərbaycanın mənafelərini uğurla müdafiə edir. Vurğulamaq yerinə düşər ki, Azərbaycan diplomatiyasının uğurları yalnız BMT ilə deyil, digər nüfuzlu təşkilatlarla da sıx əlaqə yaratmasına imkan verib. Bu sırada Azərbaycanın İslam Konfransı Təşkilatı, Avropa İttifaqı, NATO və digər tanınmış beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməsi xüsusi qeyd olunmalıdır. Ölkəmizin beynəlxalq və regional miqyasda rolu və nüfuzu durmadan artır. 2012-2013-cü illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyünün ardınca 2017-2019-cu illər üçün 176 ölkənin dəstəyi ilə BMT-nin İqtisadi və Sosial Şurasına üzv olması xarici siyasət sahəsində mühüm nailiyyətlərdir. Eyni zamanda, 2019-2023-cü illərdə Azərbaycanın dünyanın 120-dən artıq ölkəsini birləşdirən Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin qlobal diplomatik platformalarda nüfuzunu daha da artırıb. Bu uğurların davamı olaraq, 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq etimad qazandığının və nüfuzunun bariz nümunəsidir.

Bütün bunlarla yanaşı, Türk Dövlətləri Təşkilatının güclənməsi və nüfuzunun artmasında da Azərbaycan Prezidenti İlham Əliyevin misilsiz xidmətləri var. 2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçirildi və ölkəmiz bu təşkilatda sədrliyə başladı.

### "ÖLKƏMİZİN XARİCİ SİYASƏTİ UĞURLU DAXİLİ SİYASƏTİMİZİN DAVAMIDIR"

Bu gün Azərbaycan öz milli maraqlarına xələl gətirmədən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında bütün xoşniyyətli tərəfdaşlar üçün nadir əməkdaşlıq məkanına çevrilib. Azərbaycan Respublikasının xarici ölkələrdə səfirlikləri, beynəlxalq təşkilat yanında daimi nümayəndəlikləri, baş konsulluqları, təmsilçilik ofisləri və fəxri konsulluqları fəaliyyət göstərir. Respublikamızda isə dünya dövlətlərini səfirlikləri, baş konsulluqları, fəxri konsulluqları və beynəlxalq təşkilatların nümayəndəliyi vardır. Təbii ki, bu və digər nümayəndəliklərin, səfirliklərin dünya ölkələrində olması, təmsili Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiətinə çatdırılmasında əhəmiyyət kəsb edir. Dövlət başçısının vurğuladığı kimi, "Ölkəmizin xarici siyasəti uğurlu daxili siyasətimizin davamıdır. Müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq birliyin fəal üzvünə çevrilməsində diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri var".

Qırx dörd günlük Vətən müharibəsi zamanı Azərbaycanın haqlı mövqeyinə qarşı bir sıra dövlətlər və təşkilatlar əsassız kampaniyalar aparmağa çalışdılar. Prezident İlham Əliyevin və Azərbaycan diplomatlarının peşəkarlığı bütün kampaniyaları iflasa uğratdı. Haqq savaşımız diplomatik meydanda da qələbə ilə nəticələndi. Haqlı mübarizəmizin dəstəklənməsi də məhz diplomatik sahədə görülən çoxillik fəaliyyətin nəticəsidir. Əlbəttə ki, ölkəmizin xarici siyasət sahəsində qazandığı uğurlar 2020-ci ildə Vətən müharibəsi zamanı özünü göstərdi. Belə ki, məhz yürüdülən uğurlu və məqsədyönlü xarici siyasətin nəticəsi idi ki, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın haqlı mübarizəsi beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndi.

Son illər dövlət başçısının xarici siyasət strategiyasının uğurla davam etdirməsi müstəqil dövlətimizin dünya birliyindəki mövqelərini daha da möhkəmləndirir. Beynəlxalq hüquq normalarına, qarşılıqlı inam və etimada, faydalı əməkdaşlığa əsaslanan xarici siyasət yürüdən Azərbaycan qonşu dövlətlərlə münasibətlərini daha da inkişaf etdirməyə nail olaraq, regionda sülh, sabitlik, iqtisadi əməkdaşlıq təşəbbüslərini fəal surətdə dəstəkləyir. Təbii ki, diplomatiyamızın uğurları günbəgün artmaqdadır. Azərbaycan dövlətinin həyata keçirdiyi uzaqgörən və təmkinli diplomatik siyasət onun regionda lider dövlətə çevrilməsi, dünya ölkələri arasında söz sahibi olması ilə nəticələnib və ölkəmiz beynəlxalq müstəvidə kifayət qədər böyük uğurlara imza atıb.

**ZÜMRÜD BAYRAMOVA**

# “Pulsuz gəzir” deyə niyə nifrət edirik? - Blogger gerçəkləri

ARAŞDIRMA



***Bloggerlərin (xüsusilə də səyahət bloggerləri və kontent yaradıcısı influenserlərin) xarici ölkələri ”pulsuz gəzməsi” çoxlarının marağına səbəb olan mövzudur. Əslində isə bu, ”tam pulsuz” deyil, əmək qarşılığında alınan əməkdaşlıqlar və razılaşmalar nəticəsində baş verir. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

## Əsas prinsip: reklam əvəzinə səfər

Blogger, vlogger və ya influenserlər sosial şəbəkələrdə (YouTube, Instagram, TikTok və s.) güclü auditoriyaya sahibdirlər. Bu şəxslər müxtəlif ölkələrin turizm qurumları, mehmanxanalar, aviaşirkətlər və brendlərlə əməkdaşlıq quraraq məhsul və xidmətləri tanıtmaq qarşılığında pulsuz səyahət imkanları əldə edirlər.



## Kimlərə ”pulsuz səfər” təklif olunur?

Bunlar adətən 10K+ abunəçisi olan sosial media influenserləri, aktiv səyahət və ya həyat tərzi blogları olan şəxslər, YouTube və TikTok-da milyonlarla baxışı olan video müəllifləri, jurnalistlər və ya səyahət kontenti yaradan peşəkarlar olur.

## Bloggerlər hansı qurumlardan dəstək alırlar?

*Ölkələrin rəsmi turizm ofisləri*

- Məsələn: ”Visit Turkey”, ”Visit Dubai”, ”Malaysia Tourism”, ”Japan National Tourism Organization” və s.

Bu qurumlar influencerləri press-tur və ya fam-trip (familiarization trip) çərçivəsində ölkələrinə dəvət edir. Məqsəd: ölkənin təbliğidir.

## Aviadaşımalar və turizm şirkətləri

Bu aviaşirkətlər tanıtım üçün bloggerlərlə əməkdaşlıq edir.

## Otel və kurortlar

Məşhur otel şəbəkələri barter əsaslı əməkdaşlıqlar qururlar.

## Blogger nə qarşılığında bu ”pulsuz” xidmətləri alır?

Instagram postu və storilər, YouTube videosu və ya vlog, blog yazısı, TikTok videosu, Review (rəylər) və yerləşdirmələr (location tag)

Bəzi hallarda bloggerə yalnız xidmət (səfər, otel, transfer, giriş biletləri) ödənilir, bəzi hallarda isə pul da verilir.

## Necə müraciət edirlər?

Bloggerlər bu işləri əsasən belə qururlar:
1. Öz media kit (statistika, bio, əvvəlki əməkdaşlıqlar) hazırlayırlar
2. Otelə, aviaşirkətə və ya turizm ofisinə təklif göndərirlər
3. Əgər qarşı tərəf auditoriyanı və təklifi uyğun görərsə, əməkdaşlıq başlayır
4. Müqavilə və ya yazılı razılaşma əsasında qarşılıqlı öhdəliklər müəyyən olunur

## Əsas bacarıqlar və şərtlər:

* Peşəkar kontent yaratmaq bacarığı (foto/video/redaktə)
* Aktiv auditoriya və yüksək ”engagement rate”
* İctimai dildə yazmaq və danışmaq
* Dil bilikləri (ən azı ingilis dili)

## Nə üçün bu model effektivdir?

Çünki ənənəvi reklam artıq bir çox insan üçün inandırıcı deyil. İnsanlar daha çox etibar etdikləri şəxslərin təcrübələrinə əsaslanaraq qərar verirlər. Məhz buna görə də ölkələr, şirkətlər və brendlər blogger marketinqinə yatırım edirlər. Bloggerlər ölkələri ”pulsuz” gəzmirlər, öz auditoriyaları və kontent yaradıcılığı bacarıqları qarşılığında əməkdaşlıq edirlər. Bu, bir növ rəqəmsal barterdir: reklam qarşılığında xidmət və ya səfər imkanı





## Bloggerlərə nifrət niyə yaranır?

Sosial şəbəkələrdə səyahət edən, bahalı yerlərə gedən və ”pulsuz” yaşayan bloggerlərə qarşı bəzən insanlar mənfi münasibət göstərir. Bunun bir neçə əsas səbəbi var:

## ”Asan qazanc” görüntüsü

İnsanlara elə gəlir ki, bloggerlər heç bir əziyyət çəkmədən gəzib-dolaşır, otellərdə pulsuz qalır, hələ üstəlik pul da qazanırlar. Halbuki başqaları gündə 8-10 saat işləyir. Bu fərq narazılıq yaradır.

## Süni həyat və lovğalıq

Bəzi bloggerlər hər şeyi çox mükəmməl göstərir: bahalı yeməklər, ideal görünüş, problemsiz həyat. Bu isə insanlarda belə bir hiss yaradır: ”Bizim problemlərimiz var, bunlarsa sadəcə özlərini göstərirlər”. Beləliklə, bloggerlərə qarşı qıcıq yaranır.

## Reklam olduğunu gizlətmək

Bəzən bloggerlər hansısa otelə, restorana pulsuz gedirlər, amma izləyiciyə bunun reklam olduğunu demirlər. Bu isə etibarı azaldır və insanlar düşünür: ”Məni aldadırlar!”

## Qısqanclıq

Bəzən nifrətin arxasında sadəcə qısqanclıq hissi durur. İnsan içindən deyir: ”Kaş mənim də belə həyatım olaydı ” Bu, bir çox insanda bloggerlərə qarşı gizli nifrətə çevrilə bilər.

## Hər yerdə eyni tip ”influencerlər”

İndi hər kəs blog açır, selfi çəkir, ”kontent yaradıcıyam” deyir. Sosial media bu cür insanlarla doludur və artıq izləyicilər yorulub. Bu da ümumi bir bezginlik və narahatlıq yaradır.

İnsanlar bəzən bloggerlərin həyatını ”real olmayan” və ”ədalətsiz” hesab edir. Bu səbəbdən də onları bəyənmir, tənqid edir, hətta nifrət edirlər. Amma unutmayaq ki, bu da bir işdir və bu həyat tərzinin də öz çətinlikləri var.

## Bloggerlərə tövsiyə:

Şəffaf olun. Reklam etdiyiniz məhsul və ya xidmətin sponsora məxsus olduğunu izləyicinizə açıq şəkildə bildirin. Bu, güvən yaradır.

Real olun, süni olmayın. Həyatınızı yalnız ”ideal” göstərmək əvəzinə, bəzən çətinliklərdən də danışın. İzləyicilər səmimiyyətə daha çox dəyər verirlər.

Dəyər qatın. Sadəcə ”haradayam” demək əvəzinə, izləyiciyə informasiya verin: gedilən yerin tarixi, qiymətləri, üstünlükləri, çatışmazlıqları. Beləliklə, kontent faydalı olur.

Tənqidə qarşı soyuqqanlı olun. Tənqid və qısqanclıqla rastlaşmaq normaldır. Sizin nə etdiyinizi özünüz bilirsiniz. Fokusunuzu itirməyin.

## İzləyicilərə tövsiyə:

Gördükləriniz hər şey deyil. Unutmayın: sosial şəbəkələrdə paylaşılanlar həyatın yalnız yaxşı tərəfidir. Kimsə ağlamasını, yorğunluğunu paylaşmır.

Müqayisə etməyin. Öz həyatınızı başqaları ilə müqayisə etməyin. Hər kəsin imkanları və yolu fərqlidir. Siz də öz yolunuzu tapın.

Bəyənmirsinizsə, izləməyin. Əgər hansısa blogger sizdə qıcıq yaradırsa, tənqid yerinə sadəcə izləməyin. Sağlam psixoloji sərhəd budur.

Tərəfli yanaşmayın. Bütün bloggerlər eyni deyil. Aralarında savadlı, faydalı, səmimi insanlar da var. Seçici olun.

***Ayşən Vəli***

# Qərb təzyiqləri artırır

## Tramp Kiyevə yeni silahlar göndərməyi əmr edib, AB ən sərt sanksiyaları planlaşdırır



Donald Tramp ABŞ-ın Ukraynaya müdafiə qabiliyyətini gücləndirmək üçün əlavə silah göndərəcəyini açıqlayıb. Onun bəyanatı ABŞ administrasiyasının keçən həftə tədarükün bir hissəsini dayandırmasından sonra verilib və bu, Vaşinqtonun Kiyevə hərbi dəstəyini azaltması ilə bağlı narahatlığı artırıb. Rusiyanın Ukraynada hərbi əməliyyatını davam etdirməsinin qarşısını almaq üçün Fransanın xarici işlər naziri Jan-Noel Barrot Aİ-nin son üç ilin "ən sərt" sanksiyalarını açıqlayıb. Onlar iyulun 9-da Slovakiya da daxil olmaqla bütün Aİ üzvləri tərəfindən təsdiqlənə bilər. Pentaqonun sözçüsü Şon Parnel Trampın göstərişi ilə ABŞ Ukraynaya əlavə silah göndərəcəyini bildirib. Söhbət hansı silah növlərindən getdiyini açıqlamayıb. Lakin məlumdur ki, Tramp İsrailin baş naziri Benyamin Netanyahu ilə görüşü zamanı Ukraynanın müdafiə qabiliyyətini gücləndirmək niyyətində olduğunu bəyan edib. "Onlar özlərini müdafiə etməyi bacarmalıdırlar" deyən Tramp diqqətin müdafiə silahlarının tədarükünə veriləcəyini qeyd edib. Eyni zamanda o, bir daha Rusiya liderindən məyus olduğunu bildirib: "Mən prezident Putindən tamamilə narazıyam".



KİV-in məlumatına görə, Vaşinqton Trampın xüsusi nümayəndəsi Keyt Kelloqun Ukraynanın müdafiə naziri Rustem Umerovla gözlənilən görüşlərindən sonra Kiyevə Amerika hərbi yardımının bir hissəsinin tədarükünü dayandıra bilər. Bunlardan birincisi iyulun 10-11-də Romada Ukraynanın bərpasına dair beynəlxalq konfransda, ikincisi isə bir neçə gündən sonra Kiyevdə keçiriləcək. Ötən həftə Birləşmiş Ştatlar Ukraynaya Patriot zenit-raket kompleksləri (SAM), insan daşına bilən "Stinger" hava hücumundan müdafiə sistemləri, NASAMS hava hücumundan müdafiə sistemi üçün raketlər və F-16 qırıcıları üçün kəsici raketlərin tədarükünü qismən dayandırıb. Ekspertlərin fikrincə, bu, Ukrayna Silahlı Qüvvələrinin gücləndirilmiş Rusiya hava hücumlarını dəf etmək qabiliyyətinə zərərli təsir göstərə bilər. Tramp tədarükün bir hissəsinin dondurulmasını sələfi Cozef Baydenin "ölkəni boşaltması" ilə izah edib və indi ABŞ-ın özlərinin kifayət qədər döyüş sursatı olduğundan əmin olması lazımdır.

Ancaq tezliklə NBC News mənbələrə istinadən xəbər verdi ki, təftiş ABŞ-da kəskin silah çatışmazlığı əlamətləri aşkar etməyib. Ukraynaya hərbi yardımı qismən dayandırmaq qərarı Pentaqonun rəhbəri Pit Heqset və onun müavininin şəxsi təşəbbüsü olub. Kanal iddia edir ki, onlar Çini Hind-Sakit Okean regionunda saxlamaq üçün ABŞ resurslarının yönləndirilməsinin tərəfdarıdırlar.

Öz növbəsində, Axios iki mənbəyə istinadən xəbər verir ki, Tramp iyulun 4-də telefon danışığı zamanı Ukrayna prezidenti Vladimir Zelenskiyə "dərhal" Patriot hava hücumundan müdafiə sistemi üçün 10 raket göndərəcəyini vəd edib. Həmin gün Almaniya kansleri Fridrix Merz telefon danışığında Trampı Ukraynaya tədarükün bərpasına çağırıb və hətta Kiyevə çatdırılması üçün Vaşinqtondan Patriot almağı təklif edib.Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Trampın çərşənbə axşamı Ukraynaya yeni silahların tədarükü ilə bağlı bəyanatını şərh edərkən bildirib ki, hansı silahların müzakirə olunduğunu aydınlaşdırmaq üçün vaxt lazımdır. TASS Peskovdan sitat gətirir: "(ABŞ silahlarının Ukraynaya çatdırılmasının başa çatdırılması və ya dayandırılması barədə yekun məlumat yox idi - çoxlu ziddiyyətli bəyanatlar var idi. "Aydındır ki, tədarüklər davam edir, avropalılar da Ukraynaya silah-sursat vurulmasında fəal iştirak edirlər. Bu hərəkətlər çox güman ki, sülh yolu ilə nizamlanmanı təşviq etmək cəhdlərinə uyğun gəlmir. Bu halda avropalıların seçdiyi xətt açıq şəkildə hərbi əməliyyatların davam etdirilməsinə yardım etmək məqsədi daşıyır". Peskovun sözlərinə görə, Moskva Aİ-nin Rusiyaya qarşı ən sərt sanksiyaları tətbiq etmək planları ilə bağlı vəziyyəti də izləyəcək. "Əlbəttə, biz mümkün olan hər şeyi edəcəyik... bu qeyri-qanuni məhdudiyyətlərin nəticələrini mümkün qədər minimuma endirmək üçün bu illər ərzində öyrəndiklərimizi edəcəyik. Biz çox şey öyrənmişik, bu sahədə kifayət qədər təcrübəmiz var və bundan hər cür istifadə edəcəyik", - o, fransalı nazirin təhdidlərinə cavab olaraq bildirib.

Renndə çıxış edən Jan-Noel Barrot bir gün əvvəl Moskvaya qarşı Qərbin yeni sanksiyalarını elan edib. "Biz istəyirik ki, Vladimir Putin nəhayət atəşkəsə razılaşsın, çünki biz gördük ki, prezident Tramp 30 günlük atəşkəs təklif etdikdən sonra... Rusiyanın Ukraynaya zərbələri 5 dəfə artıb. Barrotun sözlərinə görə, "Rusiyanın resurslarının boşaldılması" üçün nəzərdə tutulan yeni sanksiyalar Fransanın təklifləri əsasında ABŞ senatorları ilə razılaşdırılaraq hazırlanır. Bununla bağlı nazir enerji sektorunu, xüsusilə neft ixracından gələn gəlirləri, həmçinin "Rusiya və digər ölkələrin maliyyə oyunçularını" xatırladıb. 2022-ci ilin fevralında Ukraynada müharibə başlayandan bəri Aİ artıq 17 sanksiya paketi qəbul edib. Rusiya neftinin qiymətinin bir barel üçün 60 dollardan 45 dollara endirilməsini və "Şimal axını" qaz kəmərləri ilə əməliyyatlara qadağa qoyulmasını nəzərdə tutan 18-ci paketin iyunun sonunda təsdiqlənməsi planlaşdırılırdı. Slovakiyanın mövqeyinə görə paket razılaşdırıla bilmədi və təxirə salındı.

İyulun 9-da Brüsseldə Aİ-nin Daimi Nümayəndələr Komitəsi (Coreper) üzv dövlətlərin səfirlərinin Slovakiyanı vetosunu ləğv etməyə inandırmağa ümid etdikləri 18-ci paket layihəsini yenidən nəzərdən keçirəcək. Həmçinin gözlənilir ki, iyul ayında ABŞ Rusiyaya qarşı sanksiyaların "əzilməsi" ilə bağlı ikitərəfli qanun layihəsinə, müəlliflərinin təsvir etdiyi kimi, baxacaq. Sənəd Rusiyadan neft, qaz, uran və digər enerji resurslarını alan bütün ölkələr üçün ABŞ-la ticarətə 500% rüsumun tətbiqini təklif edir.

**V.VƏLİYEV**

# "Nar" regionlarda təhsilə dəstəyini davam etdirir

Regionlara xüsusi diqqəti ilə seçilən sərfəli mobil operator "Nar"ın baş icraçı direktoru Qunnar Panke Azərbaycan Texnologiya Universitetində (ATU) keçirilən "Məzun günü" tədbirində iştirak edib. Gəncədə təşkil olunan mərasimdə 300-ə yaxın məzun, universitetin rəhbər heyəti, müəllim kollektivi və müxtəlif şirkətlərin nümayəndələri iştirak ediblər. Tədbirdə çıxış edənQunnar Panke məzunları təbrik edərək onların gələcək peşə həyatlarında uğurlar arzulayıb.

"Nar" və Azərbaycan Texnologiya Universiteti arasında imzalanmış əməkdaşlıq memorandumu çərçivəsində son bir ildə tələbələr üçün mobil texnologiyalar üzrə seminarlar, karyera hazırlığı proqramları və müəllimlər üçün ixtisasartırma təlimləri keçirilib. Bu əməkdaşlıq çərçivəsində ATU-da həm nəzəri, həm də praktik biliklərin inkişafına dəstək verilir. Çıxışında məzunlara müraciət edən Qunnar Panke bildirib:"Əziz məzunlar, sizi bu əlamətdar gün münasibə-




tilə təbrik edirəm. İnanıram ki, hər biriniz gələcəkdə seçdiyiniz sahənin peşəkarına çevriləcək və cəmiyyətin inkişafına öz töhfənizi verəcəksiniz.Telekommunikasiya sahəsində karyera qurmaq istəyənlərə isə bizimlə birgə çalışma fürsətləri açıqdır".

Qeyd edək ki, "Nar" korporativ sosial məsuliyyət strategiyasında təhsili əsas istiqamətlərindən biri kimi müəyyənləşdirib. Operator regionlarda yaşayan gənclərin bilik və bacarıqlarının artırılması onların əmək bazarına inteqrasiyasına dəstək və müasir texnologiyalarla tanışlığı istiqamətində davamlı layihələr həyata keçirir. Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobiloperator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



Mətanət MƏMMƏDOVA

# Təkcə baxmayaq, həm də görək!

***Bizim yaxşı görməyə ehtiyacımız var. Ona görə ki, yaxşı görəriksə, sadəcə baxmarıq, həm də görərik. Məsələn, görərik ki, biz insanlar ekologiyanın qənimiyik. Dənizin, çimərliklərin, təbiətin düşmənləriyik. Qırırıq, dağıdırıq, çirkləndirik, məhv edirik. Lakin bunu görə bilmirik, yaxşı görsək, görə bilərik. Görərik ki, ayağımızı haraya qoyuruqsa, orada əvvəlki vəziyyətdən əsər-əlamət qalmır. Biz gedirik, bizdən sonra yerdə izlərimiz qalır. O izlər ki, nə siz soruşun, nə mən deyim...***

Bizim yaxşı göz həkimlərinə ehtiyacımız var ki, həqiqətən də ölkəmizdə çox gözəl oftalmoloqlar var. Hansısa bir göz xəstəliyi üçün müraciət etdikdə, problemimizi köklü həll edən həkimlərimiz var. Biz nə etməliyik, hər hansı xəstəliklə qarşılaşdığımız an onlara müraciət etməliyik. Çünki göz elə bir həssas orqandır ki, onunla zarafat olmaz. Həm də bizim sağlam gözə ehtiyacımız var ki, yaxşı görə bilək. Görək ki, dünəni dünəndə qoymuşuq. Dünəndən bu günə ta artıq heç nə daşımamışıq. Adət-ənənələrimizi, ailə dəyərlərimizi, geyim, danışıq, küçə mədəniyyətini göz görə-görə dünəndə qoyub bu günlərə gəlmişik. Allah eləməsin, kor deyilik, baxırıq, lakin acı həqiqətləri necə, görə bilirikmi? Görürükmü ki, biz ta biz deyilik, başqalaşırıq?..

Bizim yaxşı görməyə ehtiyacımız var, tək bizim deyil, dünyadakı hər insanın. Ona görə ki, yaxşı görəriksə, ətrafa da göz gəzdirə bilərik. Heç uzağa getməyək, özümüzdən danışaq. Məsələn, dünyanın gözləri yaxşı görərdisə, bizim qonşuluqdan kənar qonşumuzun nə olduğunu çoxdan görmüş olardı. Uzun illər onların müdafiəsinə qalxmazdı. Haqsızlığın ayaq tutub yeridiyi dünyada bu ayaqları qırardı, erməni ədalətsizliyinə kor-koranə yanaşmazdı. Dünyanın o başından ətrafa gözləri duran yerdə əlləri ilə təmas etməkdən çəkinərdilər.

Bizim görməyə ehtiyacımız var ki, hər şeyi görə bilək. Görə bilək ki, bu dünya əzəlki dünya deyil. Ətrafa xəstəliklər səpən dünyadır. "Burada mən, cənnətdə kor xəlifə" iddiasında olan dünyadır. Bu səbəbdən də zalım dünyadır. Acımadan yox edən, özünə dartan, "mənimdir",- deyən dünyadır. Görsək, görə bilərik ki, bu dünya yaman fani dünyadır. Bu faniliyi insanlara da yansıdan dünyadır.

İnsanların bir-birinə quyu qazmaq meyli, birbirinə qarşı müharibələr tətbiq etmək, ədalətsizliyin ədalət üzərində hökmranlığı, bəli, dünyanın fani olduğunu görə bilmədiyimizdən irəli gəlir.

Hər gün dünyada yüzlərlə, minlərlə insan dünyasını dəyişir. Xeyr, onlar öz əcəlləri ilə ölmür, hər hansı bir müharibənin, hər hansı bir münaqişənin qurbanı olurlar. Çoxsaylı uşaq həyatını itirir hər gün. Valideynləri gözləri önündə can verir. Bütün bunlara biz sadəcə baxırıq, lakin görə bilmirik. Həqiqəti, reallığı görə bilmirik. Görə bilsəydik, təbii ki, insan olduğumuzu da görə bilər və bütün bunların insanlığa yaraşmayan hal olduğunu dərk edə bilərdik.

Sadəcə baxmaqla kifayətlənməyib görə də bilsəydik, görərdik ki, bizim olan dünyanı öz əlimizlə məhvə sürükləyirik. Bir-birimizə olan iddialarımızla, bəzən özümüzü kimdənsə artıq tutmağımızla, dünya varının məhz bizim olması arzusu ilə çabalayırıq. Lakin görə bilsəydik, bütün bunların boş və puç olduğunu da görə bilərdik. Və dünyada sadəcə insan kimi yaşayardıq.

Görmək... Nə böyük xoşbəxtlikdir, İlahi.. Odur ki, hər kəsə görməyi arzu edək. Çünki görməliyik ki, görə bilək. Görə bilməsək, nə dostu, nə düşməni tanıyarıq, nə yaxşını, nə pisi ayırd edə bilərik...

# Hitlerin nəvələri nüvə silahı əldə edir

## Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Rafael Qrossi Almaniyanın bir neçə ay ərzində nüvə silahı əldə edəcəyini bəyan edib

***Bugünkü dünya düzəni baş verən dağıdıcı müharibələr və münaqişələrlə çalxalanır. Hər bir qitədə insan ölümləri, şəhər və qəsəbələrin dağıdılması, tarixi binaların, memarlıq nümunələrinin məhv edilməsi müşahidə olunur. Ağır, böhranlı vəziyyəti aradan qaldırmaq, dünyada sülhü və təhlükəsizliyi təmin etmək üçün dövlətlər və onların başçıları o dərəcədə maraqlı görünmürlər. Çünki aparıcı dövlətlər müharibələrin baş verməsi ilə iri həcmli silahlarını satır, öz dövləti maraqlarını müharibə aparan dövlətlərə diktə edirlər.***

Rusiya BMT Təhlükəsizlik Şurasının daimi üzvü olaraq dünyada sülhün və təhlükəsizliyin bərqərar olmasına yardımçı olmalıdır. Bu prinsip BMT niznaməsində və əsasnaməsində öz əksini tapıb. Lakin Rusiya özü azad, demokratik, müasir dövrün tələblərinə uyğun idarəetmə həyata keçirən Ukraynaya hücum etdi və artıq 4 ilə yaxındır ki, qanlı müharibə davam edir. Ən dəhşətlisi ondan ibarətdir ki, Rusiya -Ukrayna müharibəsinin sərhədləri aşaraq dünyanın hər yerinə yayılması təhlükəsi var. Çünki Avropanın bəzi iddialı dövlətləri, o cümlədən Almaniya, Fransa kimi bəşəriyyətə təhlükə mənbəyi olan ölkələr Ukraynaya qoşun göndərməklə Rusiyaya qarşı müharibə aparacaqlarını bəyan ediblər. Bu isə Rusiyanın əlində olan nüvə silahından istifadə etməsi deməkdir. Dəfələrlə Rusiyanın sərxoş Medvedevdən tutmuş, ağıllı hesab olunduğu iddia edilən Putinə, o cümlədən də Valeri Gerasimova qədər hər bir Rusiyanın hərbi, siyasi rəhbərliyi müharibə meydanına xarici orduların burunlarını soxacaqları təqdirdə nüvə silahından istifadə edəcəklərini bildiriblər. Bu kimi xəbərdarlıqlar Avropadakı Hitlerin, Napoleonun nəvələrini heç də narahat etmir. Onlar dönə-dönə Ukraynaya ordu birləşmələrini göndərəcəklərini qeyd edirlər.









### F. Mertzi Hitlerin təlimatına uyğun fəaliyyətini qurur

Almaniya üçün Alternativ" (AfD) Partiyasının hərbi sözçüsü, istefada olan polkovnik Rüdiger Lukasse Rusiya sərhədləri yaxınlığına qoşun göndərilməsini qabaqlayıcı tədbir kimi də dəyərləndirib. Onun sözlərinə görə, Almaniya Litvada 5 minə yaxın müasir silahlarla təmin edilmiş hərbi kontingent yaratdıqdan sonra Rusiya Berlinə hücum etməyi planlaşdırır.

Rüdiger Lukasse Almaniyanın Rusiyanın hücümundan qorunması üçün ölkəsinin nüvə silahı əldə etməsinə nail olacağını söyləyib: "Almaniyanın nüvə silahına və məcburi hərbi xidmətə ehtiyacı var, xüsusən də qadınlar üçün. Bunun üçün konstitusiya mümkün qədər tez dəyişdirilməlidir.ABŞ-nin nüvə qalxanı Avropa üzərində yox olarsa, qitədəki ölkələr müstəqil hərəkət etməlidir.Almaniya Avropanın strateji müstəqilliyi, öz hərbi və komandanlıq strukturuna malik kollektiv təhlükəsizlik sistemi çərçivəsində nüvə silahlarının qarşısının alınması qabiliyyətinə malik olmalıdır".

Xatırlatmaq yerinə düşərdi ki, ikinci dünya müharibəsi illərində Litvanı xarabazarlıqlara çevirən faşit Almaniya ordusunun bölmələrini 80 il sonra Litva prezidenti Gitanas Nauseda gül çiçəklə qarşılayıb. O qarşılanma mərasimində bu günü "tarixi gün" adlandırıb və alman əsgərlərinə təşəkkür edərək deyib: "Sizin burada olmağınız təkcə Litvanı deyil, bütün Avropanı daha təhlükəsiz və güclü edir".

Almaniya Kansleri Fridrix Merts çıxışında bildirib ki, bu addım Almaniyanın NATO qarşısında öhdəliklərinə və Avropanın təhlükəsizliyinə ciddi əhəmiyyət verməsinin göstəricisidir. Kansler Almaniya və digər müttəfiqlərin NATO-nun Şərq cinahını gücləndirilməsinə xüsusi diqqət ayırdığını vurğulayıb. Almaniyanın NATO-nun təhlükəsizliyi və müdafiəsi naminə Silahlı Qüvvələrinə böyük investisiya qoyduğunu qeyd edən F.Merts bildirib ki, ölkə bununla müttəfiqlərinə də bir siqnal göndərmək istəyir: "Biz müttəfiqlərimizlə birlikdə ittifaq ərazisini istənilən təcavüzə qarşı müdafiə etməkdə qətiyyətliyik. Baltikyanı müttəfiqlərimizin təhlükəsizliyi bizim də təhlükəsizliyimizdir. Biz Baltikyanı tərəfdaşlarımızın yanında qətiyyətlə dayanırıq... Əziz litvalılar, siz bizə - Almaniyaya güvənə bilərsiniz".

Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) baş direktoru Rafael Qrossi Polşanın "Rzeczpospolita" qəzetinə müsahibəsində bildirib ki, Almaniyanın bir neçə ay ərzində nüvə silahı əldə etmək üçün lazım olan hər şeyi var: "Almaniyaya nüvə silahı yaratmaq üçün çox az vaxt lazım olacaq. Bunun üçün sadəcə bir neçə ay tələb oluna bilər. Almanların bunun üçün lazım olan nüvə materialı var, bunu necə edəcəklərini bilirlər. Onların ixtiyarında bütün lazımi texnologiyalar var", - deyə Qrossi jurnalistin sualını cavablandırıb.

Eyni zamanda o, bunların yalnız hipotetik fərziyyələr olduğunu vurğulayıb. Qrossi xəbərdarlıq edib ki, Avropa ölkələri nüvə silahı əldə etməyə çalışmamalıdır, çünki bu, dünya nizamını "cəngəllik qanunu"na çevirəcək: "Avropa ölkələri Nüvə Silahlarının Yayılmaması Müqaviləsini pozmaqda nümunə göstərsələr, biz 20-30 ölkənin nüvə silahına malik olduğu dünyaya şahid olardıq. Axı belə silahların yaradılması potensialı bütün Qərbi Avropada, bir çox Asiya ölkələrində, həmçinin Fars körfəzi ölkələrində mövcuddur... Biz "cəngəllik qanunu"na qayıdardıq, hər kəs özbaşına hərəkət edərdi".

### Almaniya Hitlerin irsindən və təlimatından heç zaman imtina etməyib

Almaniya kimi son iki yüz il ərzində bəşəriyyətə fəlakətlər gətirmiş dövlət nüvə silahı əldə edərsə, bu, artıq dünyanın sonu olacaq. Çünki bu dövlət Hitlerin irsindən və təlimatından heç zaman imtina etməyib. Hər zaman bəşəriyyətdən İkinci Dünya müharibəsində üzləşdikləri faciələrin qisasını alacaqlarını açıqlayıblar. Hətta Almaniyanın yeni kansleri F.Mertzi açıq şəkildə dünyanı hədələyib. O, Bundestaqda çıxışı zamanı Almaniyanın İkinci Dünya müharibəsi zamanı ərazilərinin ilhaq edildiyini və zəbt olunmuş torpaqların geri qaytarılmasının zamanı çatdığını bildirib. Əlavə edib ki, hədəflərə çatmaq və məqsədləri reallaşdırmaq üçün hərbi gücün artırılmasına və silahlanmaya ayrılan xərclərin artırılmasına zərurət var.

F.Mertzin çıxışı fonunda Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) baş direktoru Rafael Qrossi Polşanın "Rzeczpospolita" qəzetinə müsahibəsində bildirib ki, Almaniyanın bir neçə ay ərzində nüvə silahı əldə etmək üçün lazım olan hər şeyi var-deyə xəbərdarlıq etməsi onu təsdiq edir ki, bəşəriyyət üçüncü dünya müharibəsinə hazır olmalıdır. Yəni iki dünya müharibəsi ilə bəşəriyyətin sonunu gətirə bilməyən Almaniya üçüncü dünya müharibəsi ilə məkrli planlarını reallaşdırmağa yaxın olacaq. Bu arada bəzi ölkələrin, xüsusilə də ABŞ-ın Almaniyanın nüvə silahı əldə etməsinə göz yumması təəccüb və təəssüf doğurur. Ən azı ona görə ki, ABŞ, Böyük Britaniya, Çin və digər dünyada güc mərkəzi kimi tanınan dövlətlər birinci və ikinci dünya müharibəsinin əsas müəllifinin Almaniya olduğunu yaxşı bilir və bu müharibələr zamanı ölkələrinin dəhşətli faciələrə, fəlakətlərə məruz qaldığını da bilirlər. Almaniyanın nüvə silahı əldə etməsinə sözügedən güc mərkəzlərinin laqeyid qalmaları onların dünyanın yeni və amansız fəlakətlərlə üzləşməsində maraqlı olduqlarını göstərir. Yalınız Rusiya tərəfi Almaniyanın kimyəvi silah əldə etməsinə qarşı çıxıb, bu etiraz da sadəcə Avropa-Rusiya qarşıdurmasından qaynaqlanır. Rusiyanın Vyanadakı beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Mixail Ulyanov "Rossiya 24" telekanalının efirində bildirib ki, Almaniyanın nüvə silahı əldə etməsinə imkan verilməyəcək: "Əlbəttə, bu, axmaqlıqdır, heç kim Almaniyanın nüvə silahı əldə etməsinə icazə verməyəcək. Nə biz, nə amerikalılar, nə də ümumiyyətlə nüvə silahının yayılmaması rejimi buna imkan verməyəcək".

### Almaniyanın hərbləşməsinə imkan verilməməlidir

Siyasi təhlilçilərində qeyd etdiyi kimi, Almaniyanın hərbləşməsi və silah arsenalını genişləndirməsi bəşəriyyətə yalnız bəlalar gətirə bilər. Ən təhlükəli vəziyyət isə Hitlerin nəvələrinin nüvə silahı əldə etməsi ola bilər. Çünki Almaniyanın nüvə silahına malik olması ilk öncə qonşu dövlətlərə təhdid, sonrakı mərhələdə isə bəşəriyyətin üçüncü dünya müharibəsi ilə üz -üzə qalması demək olar. Bir növ Almaniyanın faşist təmayüllü qüvvələrinin əlində atom bombası olması terrorçuların nüvə silahı ilə bəşəriyyəti hədələməsi deməkdir. Kim qarantiya verə bilər ki, sabah faşist ideologiyası ilə "silahlan"mış Hitlerin nəvələri hansısa ölkəni işğal etməsi üçün nüvə silahından istifadə etməyəcək? Təbii ki, atom bombasından istifadə edilməsi dünyanın sonunu gətirəcək. Bunun real və qaçılmaz olduğunu dünya xalqları dərk etməlidirlər. Eyni zamanda, nüfuzlu beynəlxalq təşkilatlar bəşəriyyəti gözləyən dəhşətli fəlakətin ağırlığını anlamalıdırlar. Nəzərə almaq lazımdır ki, ötən əsrin iyirminci əsrində baş verən iki dünya müharibəsinin müəllifi məhz faşist Almaniyası olub. Ona görə də, insanlıq hərəkətə keçməli faşizmin beşiyi olan Almaniyanın zərərsizləşdirilməsi üçün hərəkətə keçməlidir. Əks halda sabah doğmalı olan günəşi zülmət qaranlıq əvəz edə bilər.

**İLHAM ƏLİYEV**

# Dünya əhalisi: kim, harada, necə?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması " istiqaməti çərçivəsində hazırlanıb*





***Dünyada hər gün təxminən 385,000 uşaq doğulur, dolayısı ilə dünyada ildə 140 milyondan çox uşaq anadan olur. Bu hər saniyəyə təxminən 2-3 nəfərin doğulması deməkdir. 8 milyardan çox olan dünya əhalisinin təxminən 50.3% faizini kişilər, 49.7% faizini qadınlar təşkil edir. Beynəlxalq statistikalara görə dünya əhalisinin 0-14 yaş qrupunu 25%, 15-64 yaş qrupunu 65%, 65 yaş və yuxarı qrupunu isə 10 % olaraq xarakterizə eləmək olar.***

Hər il iyulun 11-i dünyada Ümumdünya Əhali Günü kimi qeyd edilir. Bu tarix 1989-cu ildə Birləşmiş Millətlər Təşkilatının (BMT) əhali problemlərinin həllinə yardım göstərən ən iri beynəlxalq təşkilatı olan Əhali Fondu tərəfindən təsis edilib və ilk dəfə 1990-cı ildə 90-dan artıq ölkədə qeyd olunub.

Ümumdünya Əhali Gününün qeyd edilməsində əsas məqsəd ailə planlamasının əhəmiyyəti, gender bərabərliyi, yoxsulluq, qadın sağlamlığı və insan hüquqları kimi dünya əhalisi ilə bağlı müxtəlif məsələlər barədə məlumatlılığı artırmaq, insanların problemlərinə xüsusi diqqət yetirmək və ümumi inkişafa nail olmaqdır. Builki Ümumdünya Əhali Günü gender bərabərliyinin potensialını üzə çıxarmağa həsr olunub.

Ümumdünya Əhali Günü 2005-ci ildən etibarən Azərbaycanda geniş şəkildə qeyd olunmağa başlanılıb. Azərbaycanda MDB məkanında ilk dəfə olaraq elmi əsaslarla işlənilib, demoqrafiya sahəsində dövlət strategiyasını müəyyən edən "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilib.

Qeyd edək ki, əhalinin son siyahıyaalınmasının nəticəsi əsasında yenidən hesablanmış əhalinin sayı 2023-cü il may ayının 1-i vəziyyətinə 10 milyon 143 min 521 (Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazisindəki əhali istisna olmaqla) nəfər təşkil edib. Əhalinin 54,6 faizi şəhər, 45,4 faizi kənd sakinlərindən, 49,8 faizi kişilər, 50,2 faizi isə qadınlardan ibarətdir.

## Kim, nədən, necə əziyyət çəkir?

Ümumdünya Əhali gününə bizə bir daha xatırladır ki, bu gün də daxil olmaqla hər gün dünya əhalisinin demoqrafik problemlərinə xüsusi diqqət ayrılmalıdır. Bu gün dünyada əhali artımının qida və suya adekvat olmadığı, milyonlarla insanın iqtisadi, sosial və ekoloji problemlər ağuşunda boğulması məlum məsələdir. Təbii resursların qeyri-adekvat bölünməsi, təhsil və səhiyyə xidmətlərinə çıxışın məhdudluğu, işsizlik və yoxsulluq hökm sürən ölkələrdə əhalinin vəziyyəti ürəkaçan deyil.



Dünya əhalisinin hazırkı sosial, iqtisadi, mədəni, sağlamlıq vəziyyəti barədə fərqli problemlər mövcuddur. Çünki dünya əhalisi sürətlə dəyişir və bu dəyişikliklərin sosial, iqtisadi və ekoloji səbəbləri və nəticələri var. 2025-ci ilin statistik göstəricilərinə görə dünya əhalisi təxminən 8,1 milyard nəfərə çatıb. Proqnozlara görə, 2050-ci ilə qədər bu rəqəm təxminən 9,7 milyarda, 2100-cü ilə qədər isə təxminən 10,4 milyarda qədər yüksələcək.

Ərzaq, su və enerji kimi təbii resursların azlığı dünya əhalisinin əsas problemlərindəndir. Gənclərin təhsili və iş tapma imkanları bir çox regionlarda məhduddur. İqlim dəyişikliyi, aclıq, xəstəlik, quraqlıq, təbii fəlakətlər əhalinin artımına təsir göstərir. Bir çox ölkədə ən bəsit sağlamlıq xidmətləri belə göstərilmir.

## Doğum azalır, əhali qocalır

Əhali artımı əsasən Afrika və Cənubi Asiya regionlarında müşahidə edilir. Avropa, Yaponiya və bəzi Şərqi Asiya ölkələrində isə əhali azalır və yaşlanma prosesi sürətlənir. Ümumiyyətlə əhalinin yenilənməməsi prosesi bir çox ölkə üçün ciddi problemdir. Doğum azalır, əhalinin qocalması prosesi baş verir. İndi bəzi ölkələrdə gənc əhali üstünlük təşkil edir, Niger, Çad kimi ölkələrin əhali tərkibi əsasən gənclər və orta yaş insanlardan ibarətdir. Yaponiya, Almaniya kimi əlkələrdə isə yaşlı əhali çoxluq təşkil edir. Bu balanssızlıq əmək bazarına, pensiya sistemlərinə və sosial siyasətə ciddi təsir edir. İşçi qüvvəsinin azalması baş verir, gənc vergi ödəyicilərinin sayı azalır, pensiya alanların sayı artır, nəsil yenilənmir, qan təzələnmir.

Yaşayış xərclərinin artması, bahalaşma, evsizlik, işsizlik, qeyri-sabit əmək bazarı gənclərin evlənmə planlarını təxirə salır, dolayısı ilə doğum sayında da azalma baş verir. Bununla yanaşı qadınların təhsilə əhəmiyyət verməleri, karyera hədəflərinin olması doğum sayına ciddi təsir göstərən amillərdəndir. Uşaqsız nikahların çoxalması, habelə vətəndaş nikahında yaşayanların sayının artması da dünya əhalisinin sayındakı qocalıq nisbətinin artmasına səbəb olur.

Dünyada hələ də təhlükəsiz və könüllü ailə planlaşdırmasının əldə edilməsində bərabərlik yoxdur. Dünyanın bəzi ölkələrində dünyaya uşaq gətirən yoxdur, bəzi ölkələrində doğum nəzarət altına alına bilmir. Bəzi regionlarda qız uşaqlarına qarşı ədalətsizlik hökm sürür, analar qız övlad dünyaya gətirdiyi üçün qorxur, hamiləliyin planlanması barədə məlumatsızdır və ya imkanların əldə edilməsində adekvat davranılmır. Bəzi regionlarda erkən evliliyə, qohum nikahına məcbur edilən qızlar var.

## Aclıqla imtahan

Aclıq bir insanın bu dünyada görə biləcəyi ən böyük imtahanlardandır. Bu gün aclıq və qida çatışmazlığından əziyyət çəkən milyonlarla insan var. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Ümumdünya Qida Proqramı (WFP) və digər beynəlxalq qurumlar hər il "Dünya üzrə Qida Təhlükəsizliyi və Qidalanma" hesabatlarında aclıqla üzləşən ölkələri izləyir və sıralayır. Bəli, izləyirlər, sıralayırlar, cədvəllərə bölürlər, amma problem olduğu kimi qalır.

O cədvəllər, statistikalar deyir ki, dünya üzrə təxminən 735 milyon insan xroniki aclıqdan əziyyət çəkir, qeyri-rəsmi məlumatlar isə bu rəqəmin 1 milyardı çoxdan ötdüyünü deyir. Dünyada 3 milyard insan isə yetərsiz, keyfiyyətsiz, zəif qidalanır. Dünyanın bir tərəfində insanlar qida bolluğundan, digər tərəfində isə aclıqdan əziyyət çəkir. Yəməndə aclıq fəlakət həddindədir, insanlar müharibə, iqtisadi çöküş, blokada səbəbindən bir parça çörəyə həsrət yaşayırlar. Somalidə quraqlıq, terror, yoxsulluq səbəbində insalar ac qalrı, Cənubi Sudandakı silahlı qarşıdurmalar, sel fəlakətləri, Efiopiyada münaqişələr, ərzaq çatışmazlığı, Haitidə siyasi xaos, yoxsulluq, cinayətlər, Sudanda vətəndaş müharibəsi, qaçqın və köçkünlük, Çadda iqlim dəyişikliyi, yoxsulluq, Burkino Fasoda terror hücumları, daxili qaçqın həyatı, Konqoda silahlı qarşıdurmalar, köçlər, Əfqanıstanda iqtisadi çöküş, hücumlar əhalinin ac qalmasına səbəb olur. 11 İyulun Ümumdünya Əhali Günü kimi qeyd edilib-edilməməsi onların ac qarnını doyururmu?

## Urbanizasiya: kənddən şəhərə

Son statistik məlumatlara əsasən hazırda dünya əhalisinin 55%-dən çoxu şəhərlərdə yaşayır. 2050-ci ilə qədər bu rəqəm 70%-ə yaxınlaşacağı ehtimal edilir. Nəticədə urbanizasiya problemi - sıxlıq, infrastruktur çatışmazlığı və çirklənmə - daha da kəskinləşəcək. İqlim dəyişikliyi, müharibələr, silahlı münaqişələr və iqtisadi səbəblər dünya miqyasında məcburi miqrasiyanı, urbanizasiyanı artırır. Bu gün dünyada 100 milyondan çox insan hal-hazırda qaçqın və ya məcburi köçkün statusundadır.

Nəzarətsiz urbanizasiya dünya əhalisi üçün həm də problem yaradır. Şəhərlər iqtisadiyyatın mərkəzinə çevrilir, sənaye, xidmət sahələri və texnologiya inkişaf edir, lakin bununla paralel olaraq kəndlər boşalır, kənd təsərrüfatı, aqrar sektor məhv olur. Şəhərlərdə məktəblər, xəstəxanalar tələbata cavab vermir, normadan artıq yüklənirlər, kəndlərdə isə məktəblər boş qalır. Hazırda dünyada Çinin Şanxay, Pekin şəhərləri, Hindistanın Dehli, Mumbay, Banqalor şəhərləri, Afrika ölkələrində Lagos (Nigeriya), Nairobi (Keniya), Addis-Abeba (Efiopiya), Latın Amerikasında San-Paulo, Mexico urbanizasiyaya böyük ölçüdə məruz qalan şəhərlərdəndir.

Doğrudur, müasir dünyada urbanizasiya qaçılmazdır, istər-istəməz baş verəcək. Lakin bu prosesin davamlı və ədalətli şəkildə nəzarətdə inkişaf etməsi üçün dövlətlər və beynəlxalq qurumlar həmrəy olmalıdırlar. Sürətli urbanizasiya təkcə şəhərlərin böyüməsi deyil, eyni zamanda kəndlərin boşalması, kənd təsərrüfatının məhv olması, aqrar sahənin tənəzzül etməsi, cəmiyyətlərin strukturunda əsaslı dəyişikliklərin baş verməsi deməkdir.

Dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bütün insaların bir istəyi var - sülh ehtiva edən, bərabər hüququ təmin edən və firavanlıq vəd edən bir dünya. Lakin mənzərə ürəkaçan deyil, bir ölkədə zibilliyə atılan bir parça çörək başqa bir ölkədə bir insanın arzusudur. Bir ölkədə hər gün standart olaraq məktəbə gedən bir qızın həyatı başqa bir ölkədə bir qız uşağının xəyalıdır. İnsanlar çox şey istəmir əslində. Sosial ədalət dünyada lap çoxdan insanların ən çox axtardığı, çox vaxt tapa bilmədiyi fenomen olub. Bərabər hüququ, bərabər qidanı, bərabər şərtləri təmin edərək dünya bir gün hamıya ədalətli davranacaqmı?

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
11 iyul
2025-ci il

# Azərbaycana ən çox hansı ölkələrdən avtomobil idxal olunur?



## EKSPERT AÇIQLADI

”Son illərdə Azərbaycana avtomobil idxalında ciddi artım müşahidə olunur və bu idxalın əsas hissəsi bir neçə ölkənin payına düşür. Ən çox avtomobil gətirilən ölkələr sırasında Yaponiya, Cənubi Koreya, Almaniya, Çin və ABŞ xüsusi yer tutur”. Bu sözləri SİA-ya açıqlamasında texnika elmləri üzrə fəlsəfə doktoru, nəqliyyat eksperti Fərhad Eyyubov deyib. Onun sözlərinə görə, xüsusilə son dövrlərdə Yaponiyadan hibrid və elektrik mühərrikli avtomobillərin idxalında artım qeydə alınıb. Bu isə həm yanacaq sərfiyyatına qənaət, həm də ekoloji amillərlə bağlıdır: ”Çin istehsalı avtomobillər də bazarda getdikcə daha çox yer almaqdadır. Bunun səbəbi həm münasib qiymət, həm də son texnoloji yeniliklərin tətbiqidir. Almaniyadan idxal olunan avtomobillər isə daha çox premium və lüks seqmentə aiddir.



Eyni zamanda, ABŞ və Koreya brendləri də xüsusilə orta təbəqənin üstünlük verdiyi modellərdir.

Avtomobil idxalına təsir edən əsas amillər arasında gömrük rüsumları, yanacaq növləri, avtomobilin texniki göstəriciləri və ölkədaxili tələbat mühüm rol oynayır. Ölkəmizdə avtomobil parkının yenilənməsi və ekoloji təmiz nəqliyyat vasitələrinə keçid istiqamətində atılan addımlar da idxal coğrafiyasına və strukturuna təsir edir”.

***Z. Hikmətoğlu***


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Hər il dünyada 12 milyon qız uşağı erkən evliliyə məcbur edilir...



Save the Children” (Uşaqları xilas edin) təşkilatı dünyada hər beş uşaqdan birinin məruz qaldığı erkən nikahların fəsadları barədə məlumatlılığı artırmaq məqsədilə ”Evlilik oyun deyil” adlı kampaniyaya start verib. BMT-nin məlumatına görə, hər il dünyada 12 milyon qız uşağı 18 yaşına çatmamış evliliyə məcbur edilir, onlardan 2 milyonu isə hətta 15 yaşından əvvəl ərə verilir. Bu problem dünya üzrə hər beş qızdan birinə təsir göstərir. Adı çəkilən təşkilat, uşaq nikahlarını ”gender zorakılığının ən dağıdıcı formalarından biri” adlandırıb.

# “Taksilərlə bağlı bu problemin həlli üçün tədbirlər görülməlidir”

## EKSPERT AÇIQLADI




“Son dövrlərdə taksi sifarişi zamanı kartla ödəniş seçildikdə sürücülərin bu sifarişləri ləğv etməsi hallarına tez-tez rast gəlinir. Bu isə sərnişinlər arasında narahatlıq və narazılıq yaradır”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat üzrə ekspert Aslan Əsədov deyib. Onun sözlərinə görə, bir çox taksi sürücüsü kartla ödənişə üstünlük vermir, çünki bu zaman onların qazancı sistemə rəsmiləşir: ”Bu isə şəffaflığı artırır və gəlirin avtomatik olaraq platforma və ya vergi orqanları tərəfindən qeydə alınmasına səbəb olur. Nəticədə bəzi sürücülər vergi və digər sosial öhdəliklərdən yayınmaq üçün yalnız nağd ödənişi qəbul etməyə çalışır. Bundan başqa, kartla ödəniş zamanı bəzi platformalar sürücünün qazancından müəyyən faiz tutur. Bu da onların gəlirini azaldır və əlavə narazılıq yaradır. Sürücülər düşünür ki, nağd ödənişlə bu komissiyadan yayınaraq daha çox qazanc əldə edə bilirlər. Bu səbəblə də kartla ödənişi seçən müştərilərin sifarişləri çox zaman qəbul edilmir və ya son anda ləğv olunur.

Ekspert hesab edir ki, bu problemin qarşısını almaq üçün bir sıra tədbirlər görülməlidir. Belə ki, taksi platformaları kartla ödənişi stimullaşdırmalı, sürücülərə müəyyən bonuslar və ya güzəştlər təqdim etməlidirlər. Eyni zamanda, dövlət səviyyəsində rəqəmsal ödəniş sistemləri təşviq edilməli və sürücülərə sadələşdirilmiş uçot sistemi ilə yanaşı vergi güzəştləri də nəzərdə tutulmalıdır. Bu yanaşma həm sərnişinlərin hüquqlarının qorunmasına, həm də ümumilikdə nəqliyyat sektorunda şəffaflığın təmin olunmasına xidmət edər”.

***Ziya***

## Elan

Ucar rayon YAP təşkilatı tərəfindən Abdullayev Anar Məmmədsaqi oğluna verilmiş 458347 nömrəli YAP üzvlük vəsiqəsi itirildiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**